

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

20 may 2026-cı il, çərşənbə № 087 (7154) Qiymədi 60 qəpik


## Azərbaycan xalqı şəhər yaradan xalqdır




Bax səh. 3




## İlham Əliyev: Biz daim diplomatiyanın tərəfdarıyıq

### Azərbaycan Prezidenti "Euronews" televiziyasına müsahibə verib

Bax səh. 2

## Bakı daha bir ilkə imza atıb

Bax səh. 6

### Bakı-Daşkənd əlaqələri: qardaşlıq, uğurlu perspektiv və müttəfiqlik...

Azərbaycan ilə Özbəkistan arasındakı münasibət dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinə söykənir. Xalqların, cəmiyyətlərin tarixi bağlılığı, oxşar ənənələr və milli-mənəvi dəyərlər iki ölkə arasında siyasi dialoqu da yüksək dinamikası ilə fərqləndirir - liderlərin arasındakı səmimi dostluq münasibətləri, müxtəlif səviyyələrdə təmasların artırılması istiqamətində səylər, xüsusilə də qarşılıqlı intensiv səfərlər bu qardaşlığı daha da möhkəmləndirir. Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında iştirak etmək üçün Bakıya səfəri də məhz bu qardaşlığın, dostluğun növbəti nümunəsinə çevrildi. Qeyd edək ki, mayın 18-də Azərbaycan Prezidenti İlham Əliyev Bakıda səfərdə olan Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə görüşüb. Dövlətimizin başçısı Şavkat Mirziyoyevə Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına iştirak etdiyinə görə minnətdarlığını bildirib və qeyd edib ki, Özbəkistan Prezidentinin burada olması dövlətlərimiz...

Bax səh. 4

### Modernləşdirilmiş polad magistral



Bax səh. 5

### Mavriki ASAN modelinin tətbiqində maraqlıdır

Bax səh. 2

### WUF13 dünya mediasının diqqətində...

Bax səh. 3

### Azərbaycan multimodal bağlantılarını ardıcıl genişləndirir

Bax səh. 5

### Çin Azərbaycanın yaxın tərəfdaşıdır...

Azərbaycan ilə Çin arasında son illərdə siyasi dialoq, iqtisadi tərəfdaşlıq əlaqələri genişlənir - üst-üstə düşən maraqlar, uzlaşan mövqelər yaxın təmaslar və xüsusilə də dövlətlərarası münasibətlərin formalaşmasında və inkişafında liderlərin şəxsi münasibətləri bu məsələdə mühüm rol oynayır. İki ölkənin rəsmiləri arasında səfərlər intensivləşib, bütün sahələr üzrə danışıqlar və razılaşmalar dinamik xarakter alıb. Çinin Sədri Si Cinpin ikitərəfli münasibətlərin yüksək dinamika ilə inkişafında Azərbaycan Prezidentinin rolunu həmişə yüksək dəyərləndirir və cənab İlham Əliyevi Çinin böyük dostu adlandırır. Bu isə dinamik və işgüzar xarakter daşıyan əlaqələrin yeni mərhələdə də inkişaf xəttini davam etdirməsinin mühüm ştrixlərindəndir. Eyni zamanda, dövlət başçılarının üzbəüz görüşləri, telefon danışıqları, məktub mübadiləsi, beynəlxalq tədbirlərdəki təmaslar əsasında formalaşmış sıx dialoqu, qarşılıqlı hörmət və etimadı Azərbaycan-Çin münasibətlərinin müxtəlif sahələrdə dərinləşməsində əvəzsiz rol oynayır.

Azərbaycan Prezidenti İlham Əliyev mayın 18-də Çin Xalq Respublikası Dövlət Şurasının Baş nazirinin müavini Can Quoçini qəbul edərkən bu məqamlar müzakirə mövzusu olub. Qonaq, Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını...

Bax səh. 4




### Avropada sürətli sənaye transformasiyası - "müharibə iqtisadiyyatı"na keçid

Bax səh. 6



### Avropanın nicat qapısı - TÜRKİYƏ...

Bax səh. 7




# İlham Əliyev: Biz daim diplomatiyanın tərəfdarıyıq

## Azərbaycan Prezidenti “Euronews” televiziyasına müsahibə verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də “Euronews” televiziyasına müsahibə verib.

AZƏRTAC müsahibəni təqdim edir.

**Müxbir:** Cənab Prezident, hər zaman olduğu kimi Sizi yenidən görməyə çox şadıq. 182 ölkədən 40 mindən çox iştirakçı. Bu, COP29-dan sonra Azərbaycanda keçirilən ikinci ən böyük tədbirdir. WUF13-ə ev sahibliyi etmək Azərbaycanın dayanıqlı şəhərsalmanın gələcəyinin formalaşdırılmasında beynəlxalq roluna hansı töhfəni verir?

**Prezident İlham Əliyev:** Əlbəttə, WUF13-ə ev sahibliyi etmək bizim üçün böyük şərəfdir. Burada 182 ölkə təmsil olunur. Bu isə Azərbaycana göstərilən hörmətin bariz nümunəsidir. Bildiyimə görə, iştirakçıların sayı rekord həddə çatıb. Bu da həm mövzunun nə qədər mühüm olduğunu, həm də ev sahibi ölkənin geniş beynəlxalq əlaqələrə malik olduğunu nümayiş etdirir.

Təbii ki, bu forum bizim üçün indiyədək görülən işlər, gələcək planlarımız barədə auditoriyaya və beynəlxalq ictimaiyyətə məlumat vermək, eyni zamanda, tərəfdaşlarımızın təcrübəsindən yararlanmaq baxımından da bir fürsətdir. Çünki iştirak səviyyəsi, dövlət və hökumət başçılarının sayı göstərir ki, bu gün şəhərsalma məsələləri bir çox dünya liderlərinin diqqət yetirdiyi mövzulardan biridir. Mən çıxışımda da qeyd etdiyim kimi, tarixi və memarlıq irsinin qorunması ilə şəhərlərin müasirləşdirilməsi bir-biri ilə uzlaşmalıdır.

**Müxbir:** Aydındır ki, Azərbaycan Qarabağda və Şərqi Zəngəzurda “ağıllı şəhər” və yaşıl enerji layihələrini təqdim edib. Bunlar münaqişədənsonrakı dövrdə yenidən qurulan ərazilərdir. Sizcə, bu layihələr qlobal şəhər innovasiyalarına necə töhfə verə bilər? Başqalarının təcrübəsindən faydalanmaqdan danışdınız, bəs, onlar sizdən nə öyrənə bilər?

**Prezident İlham Əliyev:** Düşünürəm ki, biz bu günədək şəhər və kəndlərin sıfırdan qurulması ilə bağlı misilsiz təcrübə formalaşdırmışıq. Təəssüf ki, işğal altında olmuş ərazilərin genişmiqyaslı dağıntılara məruz qalması bizi buna vadar etdi. Mərhələli yanaşma, bəzi hallarda isə paralel inkişaf nəticəsində beş ilə artıq 85 min insanın doğma torpaqlarına qayıdışını təmin etmişik.

İlk növbədə, elektrik enerjisi məsələsi həll olundu. Bu günədək 307 meqavatlıq hidroenerji gücü istifadəyə verilib, hazırda 340 meqavat gücündə Günəş enerjisi layihələri isə inşa edilir. Bu həcm yalnız Qarabağ və Şərqi Zəngəzur üçün deyil, daha geniş ərazilər üçün də kifayət edəcək. Bununla yanaşı, elektrik şəbəkəsinin ölkənin ümumi enerji sistemi ilə inteqrasiyası təmin olunub. Ümumi uzunluğu 75 kilometr olan tunellərin 70 kilometri artıq istifadəyə verilib, 500 körpüdən 435-i artıq tikilib.

Dəmir yolları, məktəblər, xəstəxanalar - bütün bu işlər paralel şəkildə həyata keçirilir. Yenidənqurmanın ilk illərində əsas sərmayəni infrastrukturun yaradılmasına yatırmışdıq. Hazırda isə əsas sərmayələrimiz yaşayış sahələrinin tikintisinə yönəldilib - şəhərlərin Baş planları, “Ağıllı şəhər” və “Ağıllı kənd” konsepsiyaları üzrə layihələr həyata keçirilir. Hər bir kənd üzrə planlar icra edilir. Beləliklə, hesab edirəm ki, bizim təcrübəmiz bənzər problemlərlə üzləşmiş ölkələrə yenidənqurma üçün bir nümunə ola bilər.

**Müxbir:** Yeni dünyanın digər ölkələri üçün bir model rolunu oynaya bilər ki, bu da gözəl haldır. Azərbaycan bu gün Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verən ölkələrdən birinə çevrilib. Avropa enerji mənbələrini şaxələndirdiyi bir dövrdə Azərbaycanın rolunun necə inkişaf edəcəyini görürsünüz?

**Prezident İlham Əliyev:** Biz Avropa ilə enerji sahəsində əməkdaşlığa müəyyən müddət əvvəl başlamışıq. Xüsusilə 2020-ci ildən sonra - Cənub Qaz Dəhlizinin istifadəyə verilməsi ilə bu proses daha da sürətlənib. Hazırda həmin dəhliz vasitəsilə 16 ölkəyə təbii qaz ixrac olunur. Boru kəmərləri vasitəsilə qaz tədarük etdiyimiz ölkələrin sayına görə biz dünyada birinci yerdəyik. Bu rəqəm artmaqdadır. Avropa İttifaqının 10 üzv dövləti bizim müştərimizdir. Ümumilikdə isə 12 Avropa ölkəsi Azərbaycandan qaz alır. Ölkələrin sayı artır. Bizimlə əməkdaşlığa başlamaq istəyən ölkələrin müraciətlərinin sayı da artmaqdadır.

Xoşbəxtlikdən biz boru kəməri infrastrukturu və hasilat sahəsində ev tapşırığımızı vaxtında həyata keçirmişik. Hazırda istehsal səviyyəsi artmaqdadır. Tezliklə, yəqin ki, gələn ayın əvvəlində yeni yataqdan qaz hasilatına başlanılması ilə bağlı məlumat verəcəyik. Burada qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq mövcuddur. Bizim premium bazara ehtiyacımız var, o da Avropadır. Avropanın isə Azərbaycan kimi alternativ təchizat mənbəyinə ehtiyacı var. Beləliklə, biz səylərimizi birləşdirdik və Avropa Komissiyası ilə çox səmərəli əməkdaşlıq qurduq.

**Müxbir:** Təşəkkür edirəm. Siz həm regionda, həm onun hüdudlarından kənarda diplomatiya və sabitliyin fəal tərəfdarlarından olmusunuz. Hazırda Hörmüz böhranı regional və qlobal iqtisadiyyata təsir göstərir. Azərbaycan bu vəziyyətə necə yanaşır və bunun öhdəsindən necə gəlir?

**Prezident İlham Əliyev:** Təchizat zənciri baxımından bu böhran bizə ciddi təsir göstərmir. Çünki enerji təchizatı və marşrutların şaxələndirilməsi siyasəti bizim üçün bu günün məsələsi deyil. Bu siyasət uzun illərdir həyata keçirilir və tərəfdaşlarımız, eləcə də qonşu ölkələrlə birlikdə neft, qaz, elektrik enerjisi və nəqliyyat bağlılığı üzrə şaxələndirilmiş təchizat sistemi formalaşdırmağa nail olmuşuq.

Əlbəttə, Yaxın Şərqdə baş verən hadisələr müəyyən dərəcədə hər kəsə təsir edir. Bəziləri yüksək neft qiymətlərinin faydalı ola biləcəyini düşünə bilər. Bəli, elədir. Ancaq eyni zamanda, neft ehtiyatları ilə zəngin olan ölkələrin bir çoxu öz vəsaitlərini istiqrazlara yatırır, bir çoxu isə səhm bazarlarına investisiya edir. Belə qeyri-sabitlik baş verdiyi vaxt fond bazarları aşağı düşür. Nəticədə biz yüksək neft qiymətlərindən müəyyən gəlir əldə etsək də, bazarlarda investisiyalarımızda itki baş verir. Beləliklə, bu, hər kəsə təsir edir.

Lakin öz enerji layihələrimiz baxımından biz təhlükəsiz mövqedəyik. Siz də qeyd etdiyiniz kimi, biz daim diplomatiyanın tərəfdarıyıq. Diplomatiya olmadan biz öz ehtiyatlarımızı bazarlara çıxara bilməzdik. Çünki bunun üçün digər ölkələrin ərazisindən keçmək, qonşularla və qonşuların qonşuları ilə yaxşı münasibətlər qurmaq, çoxtərəfli əməkdaşlıq formatı formalaşdırmaq, istehsalçılar, tranzit ölkələr və istehlakçılar arasında qarşılıqlı uduşlu vəziyyət yaratmaq lazım idi ki, hər kəs qaydalara əməl etsin və gəlir qazansın.

Bu baxımdan düşünürəm ki, Azərbaycanın təcrübəsi faydalı ola bilər. Böhran həll olunduqdan sonra, - bu, tez və ya gec baş verəcək, - yəqin ki, yeni bir vəziyyət yaranacaq. Bir çox ölkələr enerji siyasətlərini və enerji ehtiyatlarının çatdırılması yollarını yenidən nəzərdən keçirəcəklər. Çox güman ki, Azərbaycanın coğrafiyası və mövcud resursları bu gün olduğundan daha çox tələb olunacaq.

**Müxbir:** Cənab Prezident, Sizinlə söhbət etmək həmişə böyük məmnuniyyətdir.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Sizi yenidən Azərbaycanda görməkdən məmnunam.

**Müxbir:** Geri qayıtmaq həmişə çox xoşdur. Müsahibəyə görə təşəkkür edirəm.

# Birgə layihələr uğurla icra olunur

## Prezident İlham Əliyev Belarus Milli Assambleyası Nümayəndələr Palatasının sədrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Belarus Respublikası Milli Assambleyası Nümayəndələr Palatasının sədri İqor Sergeyenkonu qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Belarusun Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında (WUF13) yüksəksəviyyəli nümayəndə heyəti ilə iştirak etdiyini dedi.

Sıx dostluğa əsaslanan Azərbaycan-Belarus münasibətlərinin inkişafından məmnunluğunu bildirən Prezident İlham Əliyev bütün sahələr üzrə fəal əməkdaşlığın həyata keçirildiyini vurğuladı. Bu xüsusda parlamentlərarası formatın əhəmiyyəti qeyd edildi. Ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığa toxunan dövlətimizin başçısı birgə layihələrin uğurla icra olunduğunu dedi.

Qəbula görə minnətdarlığını bildirən İqor Sergeyenko Belarus Prezidenti Aleksandr Lukaşenkonun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Aleksandr Lukaşenkoya çatdırmağı xahiş etdi.

Qonaq vurğuladı ki, Azərbaycan və Belarus liderlərinin şəxsi əlaqələri ölkələrimizin qurumları arasında əməkdaşlığın inkişafına töhfə verir.

İqor Sergeyenko Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının açılışında iştirak etdiyini deyərək, burada şəhərsalmanın mühüm istiqamətləri üzrə müzakirələrin aparıldığını vurğuladı. Qeyd etdi ki, nüfuzlu beynəlxalq tədbirlərin keçirilməsi ilə bağlı zəngin təcrübəsi olan Azərbaycanda WUF13 də yüksək səviyyədə təşkil edilib.

Söhbət zamanı münasibətlərimizin müxtəlif sahələrdə inkişafı perspektivləri müzakirə edildi, hər iki ölkənin qanunverici orqanları arasında əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

# Mavriki ASAN modelinin tətbiqində maraqlıdır

## İlham Əliyev Mavriki Prezidenti ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Mavriki Respublikasının Prezidenti Daramber Qoxul ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, WUF13 tədbirində iştirak etdiyinə görə Mavriki Prezidentinə təşəkkürünü bildirən dövlətimizin başçısı onun səfərinin ikitərəfli əlaqələrin inkişafı ilə bağlı müzakirələr aparmaq baxımından da yaxşı imkan yaratdığını dedi.

Prezident İlham Əliyev siyasi münasibətlərimizin səviyyəsindən məmnunluğunu bildirdi.

Mavriki Prezidenti bu tədbirə dəvətə görə dövlətimizin başçısına təşəkkür etdi. Daramber Qoxul ikitərəfli əlaqələrimizin müxtəlif aspektlərini müzakirə etmək baxımından da səfərinin roluna toxundu.

Bakıya səfəri çərçivəsində “ASAN xidmət” mərkəzini ziyarət etdiyini deyən Mavriki Prezidenti oradakı şəraitin onda zəngin təəssürat hissi yaratdığını bildirdi və ölkəsində də bu cür təcrübənin tətbiqində maraqlı olduğunu vurğuladı.

ASAN modelinin yaradılması ilə əlaqədar Azərbaycanın müxtəlif dövlətlərlə əməkdaşlıq etdiyini deyən Prezident İlham Əliyev bildirdi ki, bu xüsusda ölkəmiz Mavrikiyə də dəstək verməyə və təcrübəsini bölüşməyə hazırdır.

Qonaq WUF13 kimi qlobal səviyyəli tədbirin Azərbaycanda keçirilməsinin önəmini vurğuladı.

Daramber Qoxul Mavrikidən olan tələbələrə verilmiş təhsil təqaüdləri ilə bağlı Azərbaycan Prezidentinə təşəkkürünü bildirdi, gələcəkdə bunun daha da artırılması imkanlarına baxılmasını xahiş etdi.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlarda əməkdaşlığına toxunuldu, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların tərəfdaşlığın genişləndirilməsi baxımından rolu vurğulandı. İqtisadiyyat, sərmayələr, enerji, o cümlədən bərpaolunan enerji, turizm və digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

# Slovakiya hər zaman Azərbaycanın yanındadır

## Prezident İlham Əliyev Slovakiya Baş nazirinin müavinini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Slovakiya Respublikasının Baş nazirinin müavini, ətraf mühit naziri Tomaş Tarabanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı özünün ötən il Slovakiyaya, Baş nazir Robert Fitsonun isə ölkəmizə səfərlərini xatırladaraq, son dövrlərdə Slovakiyadan yüksəksəviyyəli nümayəndə heyətlərinin Azərbaycana gəldiklərini qeyd etdi və vurğuladı ki, bu, ölkələrimiz arasında fəal əməkdaşlığın həyata keçirildiyini göstərir. Prezident İlham Əliyev Azərbaycanla Slovakiya arasında mövcud dostluğu və tərəfdaşlığı yüksək qiymətləndirərək, əməkdaşlığın səviyyəsindən məmnun olduğunu dedi.

Qonaqpərvərliyə görə minnətdarlığını bildirən Tomaş Taraba qeyd etdi ki, Slovakiya hər zaman Azərbaycanın yanındadır. O, ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü daim dəstəklədiyini vurğuladı.

Slovakiya Baş nazirinin müavini dedi ki, ölkəsinə qaz lazım olduqda Azərbaycan etibarlı təchizatçı olub.

Tomaş Taraba Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Azərbaycanda keçirilməsinin önəminə də toxundu.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev hazırda Azərbaycanın 12 Avropa ölkəsini, o cümlədən Avropa İttifaqının 10 üzv dövlətini qazla təchiz etdiyini dedi, gələcəkdə bu rəqəmin artmasının mümkünlüyünü vurğuladı.

Görüşdə ikitərəfli münasibətlərimizin strateji tərəfdaşlıq xarakteri daşıdığı qeyd edildi, əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Azərbaycan xalqı şəhər yaradan xalqdır

## Ölkəmizin unikal şəhərsalma təcrübəsi dünyaya nümunədir





Azərbaycan paytaxtının ev sahibliyi ilə keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) beynəlxalq səviyyədə böyük maraq var ki, bu da təsadüfi deyil. Respublikamız unikal şəhərsalma təcrübəsinə malikdir. Ölkəmiz coğrafi baxımdan Şərqlə Qərb arasında körpü rolunu oynadığı kimi, bizim mədəniyyətimizdə, o cümlədən də şəhərsalma ənənələrimizdə də fərqliliklərin uğurlu sintezini izləmək mümkündür. Prezident İlham Əliyev WUF13-ün açılış mərasimindəki çıxışında Azərbaycanın şəhərsalma vizionunun mühüm məqamlarına diqqət çəkib.

### Azərbaycan qlobal məsələlərin müzakirə olunduğu təhlükəsiz məkana çevrilib

Bu gün dünyanın mənzərəsi olduqca kədərlidir. Ayrı-ayrı regionlarda alovlanan müharibələr inkişafa, təhlükəsizliyə ciddi təhdidlər yaradır. Sabitliyə, davamlı inkişafa digər bir təhdid son illərdə aktuallığı heç vaxt olmadığı qədər artan iqlim dəyişmələrindən gəlir. Qlobal istiləmənin ağır fəsadları olan intensiv yağışlar, sel və daşqınlar insanların həyatını ağırlaşdırır, bir sıra hallarda onları evsiz-eşiksiz qoyur. Qlobal çağırışları isə yalnız birgə səylərlə dəf etmək mümkündür. Azərbaycan Prezidenti İlham Əliyev hər zaman qlobal çağırışlar qarşısında beynəlxalq həmrəyliyin gücləndirilməsini hədəfləyən təşəbbüslər irəli sürüb. Azərbaycanın unikallığı həm də özünü onda göstərir ki, bu gün dünyada münaqişələr, müharibələr alovlandığı bir dövrdə respublikamız COP29, WUF13 kimi beynəlxalq tədbirləri uğurla təşkil etməklə qlobal məsələlərin müzakirə olunduğu təhlükəsiz bir platforma qismində çıxış edir.

Hazırda dünyanın ayrı-ayrı regionlarında şəhərsalma ilə bağlı bir sıra mühüm tədbirlər görülsə də, bu sahədə problemlər hədsiz dərəcədə çoxdur. BMT-nin Məskunlaşma Proqramının göstəricilərinə görə, dünya üzrə qlobal ev şəraitləri böhranı ilə üzləşən insanların sayı 2,9 milyarddır və onlar qeyri-rəsmi yaşayış yerlərində məskunlaşırlar. Bu reallıq fonunda beynəlxalq birliyin həmrəyliyi ən vacib şərtlərdən biridir. Məsuliyyətli dövlət olan Azərbaycan burada da özünün həssas yanaşmasını ortaya qoyur. WUF13 praktiki fəaliyyət, tərəfdaşlıq və investisiyalar vasitəsilə insanlar üçün mənzil inklüzivliyini təmin etmək, icranı sürətləndirmək üçün bir fürsətdir. "Bu gün qlobal toplantını təşkil edərək, biz şəhərsalmaya, onun inkişafına, insanların həyatını yaxşılaşdırmaq gündəliyinə və onların özlərini rahat hiss etmələri üçün əhalimizin bütün lazımi şəraitlərlə təmin olunmasına güclü sadiqliyimizi bir daha nümayiş etdiririk", - deyə Prezident İlham Əliyev çıxışında vurğulayıb.

Ölkəmizdə şəhərsalma, mənzil inklüzivliyinin təmin edilməsi dövlətin sosial-iqtisadi inkişaf strategiyasının mühüm istiqamətlərindən birini təşkil edir. Bu strateji xəttə uyğun oaraq Azərbaycan Prezidenti və Birinci vitse-prezident şəhərsalma məsələlərini daim diqqətdə saxlayırlar. Ölkəmizdə dövlət başçısının sərəncamı ilə 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunması bu qətiyyətli siyasi iradəni təcəssüm etdirir. Həmçinin paytaxtda və regionlarda sosial evlər proqramının uğurla reallaşdırılması insanlar üçün mənzil əlçatanlığının armasında mühüm rol oynayır. Eyni zamanda, Azərbaycan 2022-ci ildən etibarən BMT-nin Məskunlaşma Proqramı ilə sıx əməkdaşlıq edir. Bu əməkdaşlığın nəticəsi olaraq respublikamızda uzun illər işğal altında olmuş şəhərlərdə - Ağdamda, Zəngilanda və Xankəndidə 3 milli şəhərsalma forumu keçirilib. Həmin forumlarda şəhərsalma istiqamətində qazanılan uğurlar təqdim olunmaqla yanaşı, həm də yeni hədəflər müəyyənləşdirilib.

### Şəhərsalma məsələləri daim diqqət mərkəzində saxlanılır

Azərbaycanın şəhərsalma sahəsində bugünkü dövlət siyasəti tarixdən gələn ənənələrə əsaslanır. Respublikamızda şəhərsalmanın qədim tarixi var. Prezident İlham Əliyevin bildirdiyi kimi, nəinki Bakı, o cümlədən Azərbaycanın bir çox qədim şəhərləri öz memarlığı ilə fərəhlənə bilər. Dövlətimizin başçısı çıxışında böyük məmnunluq hissi ilə Azərbaycanın bir neçə tarixi şəhəri və zaman-zaman yaradılan memarlıq abidələri barədə qonaqlara məlumat verib. Vaxtilə Şirvanşahlar dövlətinin paytaxtı olan və XIV əsrdə yazıb-yaratmış dahi Azərbaycan şairi Nəsiminin doğulduğu yerdə - Şamaxıda 743-cü ildə tikilmiş dünyanın ən qədim məscidlərindən biri var. Bir vaxtlar Atabəylər dövlətinin paytaxtı olan, dahi memar Əcəmi Naxçıvaninin vətəni Naxçıvanda onun tikdiyi XII əsrə aid Möminə xatun türbəsi var. Dünyanın ən qədim şəhərlərindən biri olan, XII əsrdə yaşayıb-yaratmış digər dahi Azərbaycan şairi Nizami Gəncəvinin vətəni Gəncə bu gün Bakı kimi inkişaf edir və tarixi simasını qoruyur. Qafqaz Albaniyası dövlətinin paytaxtı Qəbələdə və əsas şəhərlərdən biri olan Şəkidə çoxsaylı tarixi abidələr var... "Bizim əcdadlarımız tərəfindən tikilənlər təkcə mənim qeyd etdiyim abidələr deyil. Əlbəttə ki, VI əsrə aid Qız qalası ilə Bakı, işğala, dağıntılara və talana məruz qalan abidələr müxtəlif nəsillərə aid azərbaycanlılar tərəfindən yenidən tikilib və bərpa olunub, eyni zamanda, qorunaraq bugünədək saxlanılıb", - deyə dövlətimizin başçısı bildirib.

### Tarixi qorumaqla müasirləşmə

XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycanda urbanizasiya prosesinin yeni mərhələsi başlayıb. Respublikamızda şəhərsalma konsepsiyası tarixi qorumaqla müasirləşmə prinsipinə əsaslanır. Bu siyasət indi daha geniş, məzmunlu və planlı formada həyata keçirilir. Bu gün biz paytaxt Bakının timsalında qədimliklə müasirliyin unikal vəhdətini görə bilərik. Tarixin daş möhürləri olan İçərişəhər, Qız Qalası, Şirvanşahlar Sarayı keçmişdə də əcdadlarımızın memarlıq təxəyyüllərinin nə qədər geniş olduğunu göstərir. Eyni zamanda, bu gün Azərbaycanın gur inkişafını təcəssüm etdirən müasir, əzəmətli Bakı formalaşır. Heydər Əliyev Mərkəzinin unikal memarlıq həllinə malik binası, Üç Alov qüllələri və digər tikililər paytaxtımızın yeni gözəllik rəmzlərinə çevrilib. Deyə bilərik hazırda Bakının simasında həm dünənimizi, həm də bu günümüzü görə bilərik. "... Bakıda, qədimliklə yenilik, tarixi irsimizin qorunması ilə şəhərsalmanın planlaşdırılması və müasirləşdirilməsi zəruriliyi arasında təbii vəhdət mövcuddur. Bu, həqiqətən əcdadlarımızın istedadının bariz nümunəsi, tarixi və memarlıq irsimizi necə qoruduğumuzun təzahürüdür. Şəhərsalma nəinki Bakı, o cümlədən Azərbaycanın bir çox şəhərləri üçün gündəlik əsaslarla işlədiyimiz məsələdir", - deyə Prezident İlham Əliyev bildirib.

Bu gün paytaxt Bakı və digər şəhərlərimiz ekoloji normalar ciddi şəkildə qorunmaqla inkişaf etdirilir. Son 20 il ərzində Bakıda 100 park və ictimai yer, bağlar yaradılıb. Azərbaycanın müasir şəhərsalma vizionunun bütün cəhətlərini vaxtilə neft tullantıları ilə çirklənmiş ərazidə salınan "Ağ şəhər"in timsalında aydın şəkildə görmək mümkündür. Bu, şəhər daxilində bir şəhərdir. Eyni zamanda, respublikamızda şəhərsalmanın digər təzahürü "Sea Breeze" istirahət məkanıdır. "Sea Breeze" konsepti yaşam və istirahəti bir arada cəmləşdirir.

### İşğaldan azad olunmuş ərazilərdə qazanılan şəhərsalma təcrübəsi - Azərbaycan xalqı şəhər yaradan xalqdır

Azərbaycanın unikal şəhərsalmada nümunəsini həmçinin Vətən müharibəsində işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işlərinin timsalında izləyə bilərik. İşğal dövründə həmçinin şəhər və kəndlərə, tarixi mədənidini abidələrə qarşı soyqırımı siyasəti həyata keçirilib. Təsadüfi deyildir ki, beynəlxalq müşahidəçilər və ziyarətçilər Ağdamı "Qafqazın Xirosiması" adlandırırdılar. Çünki şəhər, sadəcə, mövcud deyildi, bütünlüklə yerlə-yeksan edilmişdi. Digər yaşayış məntəqələrinin vəziyyəti də buna oxşar idi.

Azərbaycan xalqı isə yurd yerlərinə bağlı olan və şəhər yaradan xalqdır. Hazırda bəhs olunan ərazilərdə Böyük Qayıdış Proqramı həyata keçirilir, şəhər və kəndlərin Baş planları hazırlanır. Müharibədən sonrakı beş il ərzində inşa olunmuş tunellərin uzunluğu 70 kilometrdir. Digər beşi də tikiləcək. 500 körpüdən 435-i inşa olunub. Bununla yanaşı, elektrik stansiyaları, su təchizatı kəmərləri, su anbarları, evlər, məktəblər, xəstəxanalar, 3 beynəlxalq hava limanı tikilib, dəmir yolları çəkilib. "İndi hökumətimizin qarşısında duran əsas vəzifələrdən biri Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasıdır", - deyə Prezident İlham Əliyev bildirib.

**Mübariz ABDULLAYEV**

# WUF13 dünya mediasının diqqətində...













Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyası (WUF13) dünya mediasının diqqət mərkəzindədir. Çinin nüfuzlu "China Daily" nəşrində "Şanxay Mükafatı Azərbaycanda keçirilən 13-cü Ümumdünya Şəhərsalma Forumunda təqdim olunub" sərlövhəli materialında qeyd olunur ki, şəhərlərdə davamlı inkişaf üzrə Qlobal Mükafat və ya Şanxay Mükafatı Azərbaycanın Bakı şəhərində keçirilən 13-cü Ümumdünya Şəhərsalma Forumunda qlobal nailiyyətləri, innovativ təcrübələri və davamlı şəhər inkişafı üçün əməkdaşlıq baxışlarını vurğulayan bir sıra tədbirlər və sərgilər vasitəsilə təqdim olunur.

"The Europe Today" nəşrinin "Azərbaycan qlobal şəhər inkişafı vizyonunu nümayiş etdirir: Bakıda rekord qıran WUF13 tədbiri keçirilir" sərlövhəli məqaləsində Azərbaycan paytaxtının ev sahibliyi etdiyi forumun əhəmiyyəti vurğulanır. Qeyd olunur ki, genişmiqyaslı beynəlxalq toplantı getdikcə qlobal dialoq, beynəlxalq əməkdaşlıq və əsas mədəni və idman tədbirləri mərkəzinə çevrilən Azərbaycan üçün daha bir mühüm mərhələ kimi qəbul edilir. "WUF13-ün uğurlu təşkilini təmin etmək üçün Azərbaycan hakimiyyəti hazırlıqlara, infrastrukturun inkişafına, logistikaya, nəqliyyata, təhlükəsizliyə və beynəlxalq tərəfdaşlarla əlaqələndirməyə nəzarət etməkdən məsul olan xüsusi Təşkilat Komitəsi yaradıb. Rəsmilər bildiriblər ki, forumun Azərbaycanda keçirilməsi qərarı ölkənin əsas qlobal tədbirləri təşkil etmək qabiliyyətinə olan güclü beynəlxalq inamı və müasir şəhərsalma siyasətinin tanınmasını əks etdirir", -deyə məqalədə vurğulanır.

Diqqətə çatdırılır ki, şəhərsalma və davamlı inkişaf Prezident İlham Əliyev tərəfindən Azərbaycanın sosial-iqtisadi gündəliyinin əsas strateji prioritetləri kimi müəyyən edilib. Hakimiyyət orqanları qeyd edib ki, müasir şəhər ekosistemlərini inkişaf etdirərkən memarlıq irsinin qorunması dövlət siyasətinin əsas sütunu olaraq qalır. Azərbaycanın 2026-cı ili "Şəhərsalma və Memarlıq İli" elan etməsi sektora verilən əhəmiyyəti bir daha vurğulayır.

Pakistanın DND media orqanı Bakıda keçirilən WUF13-ün qlobal və regional miqyasda aktuallığı və əhəmiyyəti barədə yazıb. Qeyd olunur ki, müasir şəhərsalma Prezident İlham Əliyev tərəfindən Azərbaycanın sosial-iqtisadi siyasətinin əsas strateji prioritetlərindən biri kimi müəyyən edilib. Müasir urbanizasiyanın çağırışlarına cavab verən ekosistemlər qurarkən, memarlıq ənənələrinin qorunması dövlət siyasətinin əsas istiqamətini təşkil edir. 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edilməsi bu sahəyə göstərilən yüksək diqqətin təzahürüdür.

"Nsuzivo", "B92", "NewsBalkans", "Politika" nəşrləri, RTK və NİSTV telekanalları Serbiya Prezidentinin WUF13-də iştirakı, onun Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşü barədə müfəssəl məlumat verib. Qeyd olunub ki, Azərbaycan paytaxtının ev sahibliyi etdiyi Ümumdünya Şəhərsalma Forumu Serbiya və digər Balkan ölkələri üçün xüsusi əhəmiyyətə malikdir. Materialda forumun ən yüksək səviyyədə təşkil olunduğu vurğulanıb.

Özbəkistanın rəsmi UZA agentliyi və "Daryo" nəşrində dərc olunan materiallarda bu ölkənin Prezidenti Şavkat Mirziyoyevin WUF13-də iştirakı və onun Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşü barədə geniş məlumat verilib. Həmçinin diqqətə çatdırılıb ki, foruma ev sahibliyi edən Azərbaycan WUF13-ü ölkənin davamlı inkişaf və şəhərsalmanın qlobal gündəliyindəki mövqeyini gücləndirmək üçün fürsət kimi görür.

Gürcüstanın "ipress", "interpressnews" nəşrlərində dərc olunan məqalələrdə bu ölkənin Baş naziri İrakli Kobaxidzenin WUF13-də iştirakı və onun Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşü barədə məlumat verilib. Həmçinin qeyd olunur ki, Bakıda aparılan müzakirələr Cənubi Qafqaz regionunda şəhərsalma üzrə təcrübə mübadiləsi və əməkdaşlıq nöqteyi-nəzərindən əhəmiyyətlidir.

"Euronews" telekanalının saytında dərc olunmuş "İran Bakıdakı urbanizasiya forumunda bərpa dəstəyinə çağırıb" sərlövhəli xəbərdə qeyd olunur ki, İranın mənzil nazirinin müəvini müharibədə zərər çəkmiş 150 min evin yenidən qurulması üçün beynəlxalq dəstəyə çağırış etmək məqsədilə Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunda müraciətlə çıxış edib. Tehran rəsmisi nümayəndələrə fevral ayından bəri onlarla şəhər və qəsəbədə on minlərlə mənzilin zədələndiyini və ya dağıldığını bildirib.

Moldovanın "noi.md" portalında dərc olunan məqalədə Bakıdakı WUF13 tədbiri Moldova nümayəndələri üçün urbanizasiya sahəsində faydalı təcrübə mübadiləsi fürsəti olacaq. Materialda Azərbaycanın bu mötəbər forumu ən yüksək səviyyədə təşkil etdiyi vurğulanır.

Somalinin "YallaAfrica" nəşrində və "Shabelle" media şəbəkəsində dərc olunmuş məqalələrdə qeyd olunur ki, bu ölkənin nümayəndə heyətinə rəhbərlik edən ictimai işlər, yenidənqurma və mənzil naziri Əyyub İsmayıl Yusif Somali hökumətinin sabitliyi və davamlı artımı gücləndirmək səylərinin bir hissəsi olaraq mənzil, torpaq idarəçiliyi, iqlim uyğunlaşması və yerli iqtisadi inkişafı birləşdirən inteqrasiya olunmuş bir strategiya həyata keçirdiyini bildirib.

Bolqarıstanın BTA agentliyinin saytında bu ölkənin Prezidenti İliyana Yotovanın WUF13-də iştirakı və onun Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşü barədə ətraflı məlumat verilib. Agentlik qeyd edib ki, Bolqarıstan Prezidenti hazırda dünyada müharibələrin və münaqişələrin olduğu bir şəraitdə aktual mövzuya həsr olunmuş Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Azərbaycanda keçirilməsini böyük hadisə kimi qiymətləndirib.

"Vestnik Kavkaza" portalı WUF13-dən əvvəl keçirilən mətbuat konfransı haqqında məlumat verib. Qeyd olunur ki, Birləşmiş Millətlər Təşkilatının İnsan Məskunlaşması Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax forumun əhəmiyyətini qeyd edib, çünki qlobal mənzil böhranı qlobal ictimaiyyətdən koordinasiya və sürətli reaksiya tələb edir. O, bunun şəhər maliyyələşdirilməsi və idarəçiliyindəki struktur zəiflikləri əks etdirən qlobal, dünya miqyaslı bir problem olduğunu vurğulayıb.

"World News" erməni saytı isə "WUF13 Azərbaycanın artan beynəlxalq nüfuzunun bariz təzahürüdür" sərlövhəli məqaləsində qeyd edir ki, müasir dünyada davamlı inkişaf, ekoloji tarazlıq və innovativ idarəetmə yaxşı planlaşdırılmış şəhərsalma siyasətlərinə əsaslanır. Bu gün müstəqil Azərbaycan təkcə beynəlxalq dialoq platformaları və əsas qlobal idman və mədəni tədbirlər üçün mərkəz deyil, həm də müasir urbanizasiya tendensiyalarının formalaşdığı strateji mərkəzə çevrilib. Bu kontekstdə, Bakının Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) ev sahibliyi etməsi ölkənin artan beynəlxalq nüfuzunun daha bir parlaq təzahürüdür.

"GBJ Journal" nəşri Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) əhəmiyyəti haqqında ekspert rəylərini, həmçinin UN-Habitat-ın icraçı direktoru Anaklaudia Rossbaxın fikirlərini dərc edib. Məqalədə Azərbaycanın şəhərsalma sahəsində əldə etdiyi uğurlar da diqqətə çatdırılıb.

Suriyanın rəsmi SANA agentliyinin "Azərbaycan şəhərsalma üzrə təcrübə mübadiləsi və əməkdaşlıq mərkəzinə çevrilib" sərlövhəli məqaləsində qeyd olunub ki, Bakıda aparılan müzakirələr və təcrübə mübadilələri müharibədən çıxmış ölkələrin, o cümlədən Suriyanın həyata keçirdiyi bərpa və yenidənqurma işlərinin təşkili baxımından əhəmiyyətlidir.

"Svaziland News" nəşrində dərc olunan məqalədə Esvatini Kralı Əlahəzrət III Msvatinin başçılıq etdiyi nümayəndə heyətinin BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında iştirakı barədə məlumat verilir. Qeyd olunur ki, Kralın Prezident İlham Əliyev ilə görüşündə bu tədbirdə 180-dən çox ölkənin nümayəndəsinin iştirak etdiyi bildirilib.

Qambiyanın "The Point", Cənubi Afrika Respublikasının "Channel Africa", "Central News", Braziliyanın "El Termometro" nəşrləri də Bakıda keçirilən BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası haqqında müfəssəl məlumatlar dərc ediblər.

**Nardar BAYRAMLI**

# Bakı-Daşkənd əlaqələri: qardaşlıq, uğurlu perspektiv və müttəfiqlik...



## İki ölkə arasında dinamik münasibətlər mövcuddur

Azərbaycan ilə Özbəkistan arasındakı münasibət dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinə söykənir. Xalqların, cəmiyyətlərin tarixi bağlılığı, oxşar ənənələr və milli-mənəvi dəyərlər iki ölkə arasında siyasi dialoqu da yüksək dinamikası ilə fərqləndirir - liderlərin arasındakı səmimi dostluq münasibətləri, müxtəlif səviyyələrdə təmasların artırılması istiqamətində səylər, xüsusilə də qarşılıqlı intensiv səfərlər bu qardaşlığı daha da möhkəmləndirir. Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında iştirak etmək üçün Bakıya səfəri də məhz bu qardaşlığın, dostluğun növbəti nümunəsinə çevrildi.

Qeyd edək ki, mayın 18-də Azərbaycan Prezidenti İlham Əliyev Bakıda səfərdə olan Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə görüşüb. Dövlətimizin başçısı Şavkat Mirziyoyevə Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında iştirak etdiyinə görə minnətdarlığını bildirib və qeyd edib ki, Özbəkistan Prezidentinin burada olması dövlətlərimiz və xalqlarımız arasında qardaşlıq və dostluq əlaqələrinin göstəricisidir. Dost və qardaş Azərbaycanda olmaqdan məmnunluğunu bildirən Şavkat Mirziyoyev BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Bakıda keçirilməsi münasibətilə dövlətimizin başçısını təbrik edib, bu tədbirin şəhərsalma mövzusuna həsr olunan mühüm qlobal məsələlərin müzakirəsinə imkan yaratdığını vurğuladı və dəvətə görə təşəkkür edib.

## Strateji əlaqələr inkişaf etdirilir...

2020-ci il Vətən müharibəsinin ardından Cənubi Qafqazda baş verən siyasi-iqtisadi transformasiyalar, yeni reallıqlar Özbəkistan ilə Azərbaycan arasındakı münasibətləri də yeni bir mərhələyə daşıyıb. Artıq hər iki ölkə mühüm ticari qovşağın aparıcı strateji ünvanlarına çevriliblər. Bakının təşəbbüsü ilə meydana çıxan yeni qitələrarası birləşdirici xətt - Zəngəzur dəhlizi (TRİPP) hər iki ölkənin gələcək inkişafında əsaslı rol oynayacaq. Bu gün dünyanın diqqət mərkəzinə düşən əsas tranzit xəttləri Türk axını üzərində bərqərar olub. Demək olar ki, bütün istiqamətlər üzrə yaradılan nəqliyyat qovşaqları Mərkəzi Asiya, Cənubi Qafqaz, Kiçik Asiya üzərindən hərəkətlilik qazanır. Bu, qarşıdakı zaman kəsiyində əlaqələri günü-gündən möhkəmlənən türkdilli dövlətlərin nəqliyyat imkanlarının diversifikasiyasına da yol açır. Bakı ilə Daşkənd arasında mövcud müsbət siyasi əlaqələr isə bu mərhələdə olduqca vacib bir nüansdır - iki ölkə arasında çoxvektorlu əməkdaşlığın təməlində dayanan əsas siyasi sənədlər "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında Bəyannamə", "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"dir. Eləcə də, ötən ilin iyulunda Şavkat Mirziyoyevin Bakıya səfəri zamanı imzalanan "Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Ali Dövlətlərarası Şurasının birinci iclasının Qərarı" çoxvektorlu əlaqələri daha da gücləndirib. İki ölkə arasında "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Özbəkistan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında 2025-2027-ci illər üçün kənd təsərrüfatı və ərzaq təminatı sahəsində əməkdaşlığın gələcək inkişafı üzrə Praktiki Fəaliyyət Planı ("Yol xəritəsi")", "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında ticarət dövriyyəsinin 2030-cu ilədək 1 milyard ABŞ dollarına çatdırılması üzrə kompleks tədbirlərin və layihələrin formalaşdırılması və həyata keçirilməsinin təmin edilməsi üzrə Fəaliyyət Planı" da imzalanıb. Bütün bunlar gələcək əlaqələrin daha yüksək səviyyəyə qaldırılması ilə bağlı mühüm iradəni özündə əks etdirir.

## Qardaşlıq nümunəsi...

Bakı bu gün bütün dünyanın diqqətini özünə cəlb edib - postmüharibə dövründə sürətli bərpa prosesi, cəmisi bir neçə il ərzində Qarabağda həyata keçirilən abadlıq-quruculuq işləri hər kəsi heyran qoyur. Bunu ölkəmizdə olan bütün qonaqlar təsdiqləyir. Yeri gəlmişkən, görüş zamanı Özbəkistan Prezidenti də ölkəmizə hər səfərində inkişafın şahidi olduğunu deyərək Azərbaycanın Qarabağda yeni şəhərlər, kəndlər saldığını məmnunluqla vurğulayıb və bunu Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılmış uğurlar kimi qiymətləndirib.

Xoş sözlərə görə təşəkkür edən dövlətimizin başçısı Qarabağın bərpasında Özbəkistan Prezidentinin göstərdiyi dəstəyi qeyd edib. Bu xüsusda vurğulanıb ki, Füzulidə Özbəkistan tərəfindən inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb Qarabağın bərpası prosesində ilk hədiyyə olub. Prezident İlham Əliyev bunu qardaşlığın, dəstəyin və həmrəyliyin təcəssümü kimi qiymətləndirib.

Qeyd olunduğu kimi, qardaş Özbəkistan işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinə də öz töhfəsini verib. Belə ki, Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb bunun bariz nümunəsidir. 2023-cü ilin avqustunda açılış mərasimi olan və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən məktəb 960 şagird yerlikdir. Bu məktəbin inşası qardaş ölkələr arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyev də hər zaman Özbəkistanın Füzuli rayonunda böyük məktəb inşa etmək təşəbbüsünü ölkələrimiz arasında həmrəyliyin, dostluğun, qardaşlığın növbəti addımı kimi qiymətləndirib.

## Gələcək əməkdaşlığın konturları...

İkitərəfli əlaqələr həm də sabah üçün mühüm perspektivləri özündə əks etdrir. Bakı-Daşkənd əlaqələri həm siyasi, həm də iqtisadi platformalarda gücləndirilir. Xüsusilə, Azərbaycan-Özbəkistan İnvestisiya Fondu vasitəsilə aparılan səmərəli işbirliyinin böyük perspektivləri var. "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan-Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında" saziş 2023-cü il fevralın 24-də Daşkənd şəhərində imzalanıb və hər iki ölkənin dövlət başçıları tərəfindən təsdiqlənib. Azərbaycan-Özbəkistan İnvestisiya Şirkətinin fəaliyyəti Azərbaycanda və Özbəkistanda, eləcə də üçüncü ölkələrdə investisiya layihələrinin gerçəkləşdirilməsinə hesablanıb.

Mayın 18-də baş tutan görüşdə də dövlət başçılarının verdikləri tapşırıqlara uyğun olaraq iki ölkə arasında həyata keçirilən iqtisadi layihələr bir daha nəzərdən keçirilib, onların icrasından məmnunluq ifadə olundu. Bu xüsusda energetika, mədən sənayesi, kənd təsərrüfatı, maşınqayırma sənayesi, əczaçılıq və digər sahələrdə olan layihələrə toxunulub. Ölkələrimiz arasında əlaqələrin strateji müttəfiqlik xarakteri daşıdığı vurğulanaraq, bütün sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyi məmnunluqla qeyd olunub.

***P. İSMAYILOV***

# Çin Azərbaycanın yaxın tərəfdaşıdır...

## Pekin - Bakı münasibətləri hərtərəfli xarakter daşıyır

Azərbaycan ilə Çin arasında son illərdə siyasi dialoq, iqtisadi tərəfdaşlıq əlaqələri genişlənir - üst-üstə düşən maraqlar, uzlaşan mövqelər yaxın təmaslar və xüsusilə də dövlətlərarası münasibətlərin formalaşmasında və inkişafında liderlərin şəxsi münasibətləri bu məsələdə mühüm rol oynayır. İki ölkənin rəsmiləri arasında səfərlər intensivləşib, bütün sahələr üzrə danışıqlar və razılaşmalar dinamik xarakter alıb. Çinin Sədri Si Cinpin ikitərəfli münasibətlərin yüksək dinamika ilə inkişafında Azərbaycan Prezidentinin rolunu həmişə yüksək dəyərləndirir və cənab İlham Əliyevi Çinin böyük dostu adlandırır. Bu isə dinamik və işgüzar xarakter daşıyan əlaqələrin yeni mərhələdə də inkişaf xəttini davam etdirməsinin mühüm ştrixlərindəndir. Eyni zamanda, dövlət başçılarının üzbəüz görüşləri, telefon danışıqları, məktub mübadiləsi, beynəlxalq tədbirlərdəki təmaslar əsasında formalaşmış sıx dialoqu, qarşılıqlı hörmət və etimadı Azərbaycan-Çin münasibətlərinin müxtəlif sahələrdə dərinləşməsində əvəzsiz rol oynayır.



Azərbaycan Prezidenti İlham Əliyev mayın 18-də Çin Xalq Respublikası Dövlət Şurasının Baş nazirinin müavini Can Quoçini qəbul edərkən bu məqamlar müzakirə mövzusu olub. Qonaq, Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını Azərbaycan Prezidentinə çatdıraraq qeyd edib ki, Si Cinpin Prezident İlham Əliyevi Çinin dostu kimi dəyərləndirir.

**Bakı qlobal məsələlərin müzakirə ünvanıdır...**

Azərbaycan sözün əsl mənasında yeni dövrün aparıcı aktoru kimi ön plana çıxıb. Qlobal təhlükəsizliyin təmininə verdiyi töhfələr, yeni iqtisadi nizamın inkişafındakı səylər, ekosistemin qorunmasında fəal iştirak, yaşıl enerji siyasətindəki irəliləyişlər, o cümlədən, müasir inkişaf istiqamətlərinin mənimsənilməsi - süni intellektin inkişaf etdirilməsi və bu kimi əsaslı addımlar Bakını diqqət mərkəzinə salır. Ölkəmizdə keçirilən beynəlxalq statuslu tədbirlər Azərbaycanın sürətli inkişafının mühüm təqdimatına çevrilir. Bu mənada BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında qlobal urbanizasiya gündəliyi ilə bağlı aktual mövzuların müzakirəsi də təsadüfi sayıla bilməz - Bakı yeni mərhələdə qlobal gündəlikdə yer alan əsas məsələlərin həlli ilə bağlı vacib proqramlar təqdim etməkdədir. Çin Xalq Respublikası Dövlət Şurasının Baş nazirinin müavini Can Quoçin də tədbirdə iştirak etməkdən şərəf duyduğunu deyib və ölkəsində bu foruma mühüm əhəmiyyət verildiyini vurğulayıb. O, ölkəmizin belə bir mötəbər tədbirə ev sahibliyi etməsi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırıb. Qonaq, həmçinin forumun açılış mərasimində Azərbaycan Prezidentinin çıxışının çox məzmunlu olduğunu bildirib. Prezident İlham Əliyev Çinin bu tədbirdə yüksəksəviyyəli nümayəndə heyəti ilə təmsil olunmasını Azərbaycana hörmət və dostluq əlaməti kimi qiymətləndirib.

**İkitərəfli əlaqələr...**

Qeyd edək ki, 2024-cü ilin iyulunda və ötən ilin aprelində imzalanmış strateji əlaqələrin qurulması və inkişaf etdirilməsi ilə bağlı bəyanatlar ikitərəfli münasibətlərə yeni nəfəs, yeni şəkil qazandırıb. İmzalanan sənədlər, müzakirə edilən məsələlər, o cümlədən, proqnozlaşdırılan geniş əməkdaşlıq sferası mühüm bir regionda gələcək onilliklərin iqtisadi xəritəsini müəyyənləşdirir. Ötən il aprelin 23-də imzalanan "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" isə ikitərəfli əməkdaşlıqda yeni səhifə açıb. Bu sənəd strateji tərəfdaşlıq səviyyəsinin ən yüksək səviyyədə inkişafına - Azərbaycan və Çinin genişmiqyaslı layihələr həyata keçirməsinə, vizasız rejimin tətbiqinə yol açıb, əməkdaşlıq isə siyasət və iqtisadiyyatdan humanitar mübadiləyə qədər getdikcə daha çox sahəni əhatə edir.

İkitərəfli əlaqələrdə lider amili isə xüsusi əhəmiyyətə malikdir - qarşılıqlı hörmət və etimad Azərbaycan-Çin münasibətlərinin müxtəlif sahələrdə dərinləşməsində əvəzsiz rol oynayır. Qəbul zamanı Çin Xalq Respublikası Dövlət Şurasının Baş nazirinin müavini Can Quoçin Azərbaycan-Çin əlaqələrində sürətli artımını məmnunluqla qeyd edib və dövlət başçılarının görüşlərini xatırlayıb. Qonaq münasibətlərimizin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə çatdığını bildirib.

**Bakı "vahid Çin" prinsipini dəstəkləyir...**

Azərbaycan və Çin dövlətləri ərazi bütövlüyünə və suverenliyə qarşılıqlı hörmət prinsipini daim yüksək dəyərləndiriblər. Bunun nəticəsidir ki, Bakı hər zaman "vahid Çin" prinsipini qətiyyətlə dəstəkləyir, dünyada yalnız bir Çinin mövcudluğunu, Çin Xalq Respublikası hökumətinin bütün Çini təmsil edən yeganə qanuni hökumət olduğunu, Tayvanın isə Çin ərazisinin ayrılmaz bir hissəsi olduğunu tanıyır - Azərbaycan istənilən formada "Tayvanın müstəqilliyi"nə qarşı qətiyyətlə çıxış edir və Tayvan boğazının iki sahili arasındakı münasibətlərin dinc inkişafını, habelə Çin hökumətinin Çinin birləşdirilməsi istiqamətində səylərini dəstəkləyir. Çin tərəfi də öz növbəsində Azərbaycan tərəfinin Cənubi Qafqazın inkişafı üçün təklif etdiyi sülh gündəliyini qətiyyətlə dəstəkləyir və konfrontasiyanın saxlanmasına yönəlmiş geosiyasi intriqaları qeyri-səmərəli hesab edir. Qeyd edək ki, "Tayvan problemi" uzun illərdir ki, davam edir və məsələ ilə bağlı Azərbaycanın mövqeyi birmənalıdır - Bakı "vahid Çin" siyasətini dəstəkləyib. Səfir də müsahibəsində bu məqama toxunaraq qeyd edib ki, siyasi qarşılıqlı etimad daim möhkəmlənir. Prezident İlham Əliyev Çin hökumətinin milli birliyə yönəlmiş bütün səylərinə dəstəyini aydın şəkildə bildirib.

Çinli qonaq da görüş zamanı ölkəsinin Tayvan regionu ilə əlaqədar Azərbaycanın qətiyyətli mövqeyinə görə təşəkkürünü bildirib. Çinin də Azərbaycanın müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü daim dəstəklədiyini vurğulayıb. Prezident İlham Əliyev Azərbaycanın vaxtilə separatizmdən əziyyət çəkən ölkə kimi separatizmin bütün forma və təzahürlərini pislədiyini bildirib. Dövlətimizin başçısı qeyd edib ki, ölkəmiz Çinin Tayvan regionunda keçirilmiş qanunsuz seçkiləri nəinki tanımayıb, hətta onun pislənilməsi bəyanatı ilə çıxış edən yeganə dövlətlərdən biri olub. Prezident İlham Əliyev bu xüsusda vurğulayıb ki, Azərbaycan "vahid Çin" siyasətini daim dəstəkləyir.

**Siyasi əlaqələrin inkişafında iqtidar partiyalarının rolu...**

Görüşdə Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyası arasında əlaqələr qeyd olunub, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdiyi vurğulanıb. Bəli, Çin ilə Azərbaycan arasında ictimai həyatın ən müxtəlif sahələri üzrə əməkdaşlıq yüksək səviyyədədir - iki ölkənin aparıcı siyasi gücü sayılan iqtidar partiyaları arasında çoxşaxəli əlaqələr mühüm inkişaf tempinə malikdir. Qarşılıqlı səfərlər, təşkil olunan beynəlxalq səviyyəli partiyalararası konfrans və tədbirlər, partiyaların ayrı-ayrı strukturlarının əlaqələndirilməsi yönündə atılan addımlar müsbət nəticələr verir. Xüsusilə, son bir neçə ildə bu əlaqələrin daha da güclənməsi diqqəti cəlb edir. Yeri gəlmişkən bu ay Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyəti Çinə səfər edib. Səfər çərçivəsində YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsi sədrinin müavini Çjen Tszyanban, Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Lyu Haysin, Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) üzvü, Partiya Məktəbinin birinci prorektoru, nazir Si Çuntao, Çin Kommunist Partiyası (ÇKP) Şensi vilayət təşkilatının katibi, Şensi vilayəti Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Çjao İde ilə görüşüb.

Qeyd olunmalıdır ki, YAP və ÇKP arasında əməkdaşlıq münasibətləri uzun illərdir davam edir. Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Avrasiya Departamentinin rəhbərliyinin 1999-cu il dekabrın 20-21-də Yeni Azərbaycan Partiyasının ilk qurultayında iştirak etmək üçün ölkəmizə səfəri ilə əsası qoyulan partiyalararası əməkdaşlıq əlaqələri ən güclü və intensiv formada davam etdirilir.

***P.İSMAYILOV***

# Modernləşdirilmiş polad magistral

## Bakı-Tbilisi-Qars dəmir yolunun yükötürmə qabiliyyəti 5 milyon tona çatdırılıb

Mayın 18-də Bakıda Prezident İlham Əliyev və Baş nazir İrakli Kobaxidzenin iştirakı ilə Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvili tərəfindən "Bakı-Tbilisi-Qars" (BTQ) yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda-Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin reabilitasiyası, rekonstruksiyası, inşası üzrə Koordinasiya Şurasının 41-ci iclasının Protokolu imzalanıb. Sənədə əsasən, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi üzrə həyata keçirilmiş modernləşdirmə işlərinin tamamlanması və yekun qəbulu təsdiq edilib.

Yeri gəlmişkən, Azərbaycan və Gürcüstan hökumətləri arasında imzalanmış Birgə Kommünike sənədinə əsasən, ikitərəfli bağlantıların daha da möhkəmləndirilməsi, o cümlədən, müvafiq dəmir yolu infrastrukturunun dəmir yolu xəttinin idarə olunmasına nəzarət etmək üçün "BTKI Dəmir Yolları" MMC Birgə Müəssisəsinə ötürülməsini rəsmiləşdirib. Bu, regional bağlantının gücləndirilməsində mühüm addım olmaqla yanaşı, həm də nəqliyyat əlaqələrinin inkişafında yeni xidmətləri təmin edəcək.

### Orta Dəhlizin əsas arteriyalarından biri



Azərbaycan mühüm nəqliyyat dəhlizlərinin qovşağında yerləşir və regionun əlaqələndirilməsində əsas rol oynayır. Nəqliyyat infrastrukturlarını müasirləşdirən ölkəmiz qlobal dəhlizlərin ən mühüm tərkib hissəsinə çevrilən dəmir yolu nəqliyyatını da modernləşdirməklə tərəfdaş ölkələrlə sıx platforma qurmaqdadır. Eləcə də, müasir dövrdə nəqliyyatın idarə edilməsində rəqəmsal texnologiyaların tətbiqi və infrastrukturun elektronlaşdırılması qarşıda duran əsas çağırışlardandır. Bu baxımdan Azərbaycanın regional tranzit dəhlizlərindəki rolunun artması rəqəmsallaşma ilə bağlı tədbirlərin də həyata keçirilməsini zəruri edir. Bu ssenariyə əsasən, BTQ-nin modernləşdirilməsinin məqsədi bu nəqliyyat qovşağını Orta Dəhlizin əsas yükdaşıma arteriyalarından birinə çevirmək və dəhlizin rəqabət qabiliyyətini artırmaqdır.

Qeyd edək ki, BTQ-nin imkanlarının artırılması məqsədilə 2024-cü ildə "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən xəttin Gürcüstan ərazisindən keçən 184 kilometrlik hissəsində modernləşdirmə işləri aparılıb. Dəmir yolunun Gürcüstan ərazisində həyata keçirilən modernizasiyası beş əsas mərhələni əhatə edib: Marabda-Tetriskaro, Tetriskaro-Tsalka, Tsalka-Axalkalaki, Axalkalaki-Kartsaxi və Axalkalaki kompleksi. 5 mərhələdən ibarət olan layihə 13 dəmir yolu stansiyası, 55 körpü, 8 dartı yarımstansiyası, 320 bina və süni mühəndis qurğularını (körpü, yolötürücü, keçid və s.) əhatə edir. Layihə çərçivəsində 30,3 kilometr uzunluğunda yeni dəmir yolu xətti, təkər cütlərinin dəyişdirilməsi stansiyası, 153,1 kilometr uzunluğunda mövcud dəmir yolunun reabilitasiya və rekonstruksiyası üzrə işlər həyata keçirilib. Layihə mürəkkəb coğrafi relyefdə, bəzi ərazilərdə dəniz səviyyəsindən 2400 metr yüksəklikdə və sərt iqlim şəraitində icra olunub. Layihədə uzunmüddətli səmərəliliyi və etibarlılığı təmin etmək üçün qabaqcıl texnologiyalar və müasir Avropa istehsalı avadanlıqlardan istifadə edilib. Layihənin Gürcüstan seqmentində tamamlanan modernləşdirmə işlərindən sonra dəmir yolunun illik yükgötürmə qabiliyyəti 1 milyon tonu ötüb.

ADY layihənin Azərbaycan tərəfində - Bakı-Böyük Kəsik sahəsində də əsaslı təmir işləri həyata keçirib, enerji sistemini yeniləyib. Ötən il Böyük Kəsikdən Hacıqabul sahəsinə qədər dəyişən cərəyan sistemi tətbiq olunub, rabitə və işarəvermə sistemləri yenidən qurulub. Yenilənmiş BTQ xətti üzrə ilk yük qatarı 2024-cü il mayın 20-də Abşeron Logistika Mərkəzindən yola düşüb və 20 konteyner yükü Bakıdan Qarsa çatdırılıb. Bu, BTQ xəttinin regional yükdaşımalarda yenidən aktiv rol oynadığını nümayiş etdirib.

Ümumilikdə, görülən işlər nəticəsində Avrasiya nəqliyyat şəbəkəsinin əsas elementi kimi BTQ-nin illik yükötürmə qabiliyyəti 1 milyon tondan 5 milyon tona çatdırılıb. Dəmir yolunun xətti regional sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsində mühüm rolu əhəmiyyətli dərəcədə artıb.



### Zəngəzur dəhlizinin yeni qolu - Qars-İğdır-Naxçıvan dəmir yolu xətti

Bakı-Tbilisi-Qars polad magistralının davamı kimi nəzərdə tutulan digər yeni xətt Qars-İğdır-Aralık-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu layihəsidir ki, bu istiqamətdə də mühəndis-kommunikasiya əlaqəndirilməsi işləri davam etdirilir. Orta Dəhlizin yeni şaxəsi olan Qars-İğdır-Naxçıvan dəmir yolu layihəsi 223,9 kilometr uzunluğunda yüksək standartlı dəmir yolu xəttini əhatə edir. Saatda 120-160 kilometr sürət üçün nəzərdə tutulan layihə 5 ilə tamamlanacaq. Uzunluğu 638 metr olan 10 körpü, 5,5 kilometr uzunluğunda 144 yeraltı keçid tikiləcək. Qars-İğdır-Naxçıvan dəmir yolu layihəsi muxtar respublikanın nəqliyyat və iqtisadi potensialını artıracaq, eyni zamanda, beynəlxalq ticarətə yeni imkanlar yaradacaq. Zəngəzur dəhlizinin tərkib hissəsi olan Qars-İğdır-Aralıq-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xətti təkcə Türkiyə və Naxçıvanı Azərbaycanın əsas ərazisi ilə birləşdirmir. Bu layihələr daha qlobal xarakter daşıyır və Avropa ilə Asiyanın ticarət əlaqələri üçün olduqca əlverişlidir. Həmçinin dəmir yolu xəttinin Bakı-Tbilisi-Qars layihəsi ilə inteqrasiyası nəzərdə tutulur.

Göründüyü kimi, BTQ sadəcə Bakı, Tbilisi və Qarsı birləşdirən dəmir yolu deyil, modernləşdirilmiş xətt Orta Dəhlizin yükdaşıma qabiliyyətini artıracaq, Şərq-Qərb ticarət axınlarını sürətləndirəcək, Azərbaycanı regional tranzit qovşağı kimi gücləndirərək Avrasiya logistika sistemində yeni balans yaradacaq.

Beləliklə, modernləşdirilən Bakı-Tbilisi-Qars dəmir yolu hazırda Orta Dəhlizin əsas komponenti olaraq Çin, Mərkəzi Asiya və Avropa arasında yükdaşımaların Qərb və Şərq istiqamətində səmərəli həyata keçirilməsini tam təmin edir. Yeni strateji plan və "BTKI Railways" MMC-nin fəaliyyəti sayəsndə BTQ-nin yükdaşıma imkanları daha da artmaqla, Çin və Mərkəzi Asiyadan Avropaya uzanan ən qısa və çevik quru marşrutlardan biri kimi daha funksionallığı güclənəcək, bölgədə ən etibarlı nəqliyyat arteriyasına çevriləcək.

***E.CƏFƏRLİ***

# WUF13 çərçivəsində vətəndaş cəmiyyəti təşkilatları bir araya gəlib

## İcma birliklərinin və vətəndaş cəmiyyəti təşkilatlarının Assambleyasının yekun iclası keçirilib

Bakı Birləşmiş Millətlər Təşkilatının (BMT) ən nüfuzlu qlobal urbanizasiya platformalarından biri olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) ev sahibliyi edir. "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr olunan bu beynəlxalq tədbir BMT-nin Məskunlaşma Proqramı - UN-Habitat tərəfindən təşkil edilir və şəhərsalma, dayanıqlı inkişaf, inklüziv yaşayış mühiti kimi qlobal əhəmiyyətli məsələlərin müzakirəsi üçün mühüm platforma hesab olunur.




WUF13-ün məhz Azərbaycanda keçirilməsi ölkəmizin beynəlxalq nüfuzunun artdığını, qlobal proseslərdə fəal iştirakını və xüsusilə şəhərsalma ilə dayanıqlı inkişaf sahələrində həyata keçirilən siyasətin beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirildiyini göstərir. Forumun regionda ilk dəfə olaraq Azərbaycanda təşkil edilməsi isə ölkəmizin beynəlxalq əməkdaşlıq və müasir şəhərsalma gündəliyində artan rolunun mühüm göstəricisidir.

Artıq mayın 17-dən WUF13 çərçivəsində bir sıra tədbirlər baş tutub. Belə tədbirlərdən biri də İcma birliklərinin və vətəndaş cəmiyyəti təşkilatlarının Assambleyasının yekun iclasıdır. İclasda dayanıqlı şəhərsalma, inklüziv urbanizasiya, iqlim dəyişikliklərinə davamlı şəhərlərin formalaşdırılması və vətəndaş cəmiyyətinin qərar qəbuletmə prosesində rolunun artırılması məsələləri müzakirə olunub. İclasda çıxış edən beynəlxalq mütəxəssis Gerrit Bloemberg bildirib ki, mənzil əlçatanlığı çox vaxt inkişafın göstəricisi kimi təqdim olunur: "Lakin kirayə depozitləri hələ də bir çox insan üçün əlçatmaz olaraq qalır. Bəzi hallarda isə sənədləri qaydasında olan evlər sökülür və həmin ərazilərdə əvvəlki sakinlərin ala bilməyəcəyi qiymətdə yeni mənzillər tikilir. Əsas diqqət qanuniliyə, ictimai marağa, yaşayışın təhlükəsizliyinə və adekvat alternativlərin təmin olunmasına yönəlməlidir. İkincisi, kompensasiya məsələsidir. Əksər hallarda verilən kompensasiya ailələrin həyatını yenidən qurması üçün kifayət etmir. İnsanlar evlərini, bizneslərini, məktəblərini, sosial əlaqələrini və illərlə formalaşmış icma bağlarını itirirlərsə, kiçik məbləğdə ödəniş ədalətli hesab oluna bilməz. Kompensasiya adekvat, şəffaf və insanların yaşayışını real şəkildə bərpa etməyə imkan verəcək səviyyədə olmalıdır. Üçüncüsü, hökumətlər bu prosesdə birbaşa iştirak etməlidir. Biz vətəndaş cəmiyyəti olaraq güclü səs ola bilərik, lakin köçürülmə ilə bağlı qərarları verən və icra edən tərəf əsasən dövlət qurumlarıdır. Buna görə də hökumətləri, yerli icmaları, vətəndaş cəmiyyətini və texniki tərəfdaşları birgə məsuliyyətə cəlb edən mexanizmlər yaradılmalıdır".

Mino Harivelo Ramaroson isə bildirib ki, peşəkar şəhər planlaşdırıcıları və texniki mütəxəssislər mühüm işlər görsələr də, bəzi hallarda bu planlar yerli icmaların və insanların real ehtiyaclarını tam əhatə etmir. O qeyd edib ki, yerli idarəetmə orqanlarının və hökumətlərin inkişaf prosesini daha effektiv həyata keçirməsi üçün gücləndirilməsinə ehtiyac var: "Müzakirələrin yalnız söz olaraq qalmaması, real nəticəyə çevrilməsi üçün hansı maliyyələşdirmə mexanizmlərinin yaradılmalı olduğu da vacib məsələdir. Məqsəd yalnız danışmaq deyil, verilən vədləri əməli fəaliyyətə çevirməkdir. Mənzil məsələsi imtiyaz deyil, əsas hüquq kimi qəbul olunmalıdır. Bununla yanaşı, maliyyə resurslarının necə idarə olunmasına da diqqət yetirilməlidir. Dövlət investisiyalarının yerli insanların ehtiyacları ilə necə əlaqələndirildiyi mühüm əhəmiyyət daşıyır".

Digər mütəxəssis Nduta Nkirote Mmbogori çıxışında qeyd edib ki, birbaşa maliyyələşdirmə vacibdir. "Burada olmaq mənim üçün böyük zövqdür. Biz, sadəcə, layihələrdən faydalanan tərəf deyilik. Suyu olmayan evlərdə yaşayan, klinikaya getmək üçün iki avtobus dəyişən və köçürülmə xəbərdarlıqlarından kənarda qalan insanlarıq. Hazırda bir çox yerli qruplar vəsaiti dolayı yolla alır və beynəlxalq QHT-lər 20 faiz inzibati xərc tutur. Buna görə də UN-Habitatı (BMT-nin Məskunlaşma Proqramı) yerli icmaları mənzil vəziyyətinin yaxşılaşdırılması, hüquqi yardım və mülkiyyət təhlükəsizliyi üçün birbaşa maliyyələşdirən sadələşdirilmiş qrant mexanizmlərinə keçməyə təşviq etməliyik. Bu yanaşma şəhər və milli mənzil strategiyalarında rəsmi töhfə kimi qəbul olunmalıdır. Məsələn, daşqına davamlı ev olsa belə, əgər klinikaya yol yoxdursa, bu ev tam faydalı sayılmır. Torpaq qeydiyyatı proqramı da o zaman uğursuz olur ki, qadınlar öz adlarına mülkiyyət qeydiyyatı edə bilmirlər. Bu əlaqələri ən yaxşı görənlər yerli təşkilatlardır. Həmçinin əlilliyi olan insanlar və yaşlılar üçün vəziyyətə baxaq: mənzil proqramlarının çoxunda - təxminən 95 faizində əlçatanlıq üçün ayrıca büdcə nəzərdə tutulmur", - deyə o qeyd edib.

Sessiya müxtəlif ölkələrdən olan nümayəndələrin şəhərlərin gələcək inkişafı, sosial bərabərlik, əlçatan mənzil siyasəti və icmaların şəhər idarəçiliyində iştirakının əhəmiyyəti ilə bağlı fikirlərinin səsləndirilməsi ilə davam edib.

***N.BAYRAMLI***

# Azərbaycan multimodal bağlantılarını ardıcıl genişləndirir




Azərbaycan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) və Şimal-Cənub Dəhlizinin əsas təşviqedicilərindən biri kimi beynəlxalq səviyyədə tanınan roluna söykənərək, postmünaqişə strategiyasının tərkib hissəsi olaraq multimodal nəqliyyat bağlantılarının inkişafını ardıcıl şəkildə təşviq edir.

Bunu xarici işlər naziri Ceyhun Bayramov Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) çərçivəsində keçirilən "Əlaqələndirmənin mərkəzində şəhərlər: şəhər yenidənqurması və regional əməkdaşlıq" mövzusunda tədbirdə deyib.

"2025-ci ilin avqustunda imzalanmış Vaşinqton Bəyannaməsi Beynəlxalq Sülh və Rifah naminə Tramp Yolu təşəbbüsünün əsasını qoyub. Bu təşəbbüs yalnız Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz multimodal əlaqəni təmin etməyəcək, eyni zamanda, dəmir yolları, avtomobil magistralları, enerji kəmərləri, elektrik və fiber-optik kabellər vasitəsilə Asiya ilə Avropanı birləşdirən yeni strateji bağlantı xətti yaradacaq", - deyə nazir vurğulayıb.

Onun sözlərinə görə, Horadiz-Ağbənd dəmir yolu və Türkiyənin yeni Qars-İğdır-Dilucu dəmiryolu xətti Zəngəzur dəhlizini tamamlayaraq regional bağlantını gücləndirəcək və Asiya ilə Avropa arasındakı əlaqələri daha da möhkəmləndirəcək.

# Bakı daha bir ilkə imza atıb

## Ümumdünya Şəhərsalma Forumu çərçivəsində ilk dəfə Liderlər Sammiti keçirilib

Bu gün Azərbaycan dünyada etibarlı tərəfdaş və nüfuzlu dövlət kimi tanınır. Eyni zamanda, ölkəmiz sabitlik adası kimi xarakterizə olunur. Məhz bu səbəblərdən də, Azərbaycan mötəbər beynəlxalq tədbirlərin keçirildiyi mərkəzlərdən biridir. Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) Bakıda keçirilməsi qərarı da bu reallığın əyani nümunəsidir.

Əlbəttə, belə bir qərarın qəbul olunması heç də təsadüfi deyil. Çünki Azərbaycanda şəhərsalma və memarlıq ənənələrinin çoxəsrlik zəngin bir keçmişi var. Günümüzədək gəlib çatan qala şəhərlər, memarlıq abidələri tarixin daş yaddaşı kimi səciyyələndirilir. Texnologiyanın inkişafının zəif olduğu dönəmlərdə inşa olunan və bu gün də memarlıq əhəmiyyətini itirməyən, gözəlliyi ilə insanları valeh edən tikililər əcdadlarımızın yaradıcılıq təxəyyülünün nə qədər geniş olduğunu təsdiqləyir. Bu qəbildən olan tikililər, eyni zamanda, məmləkətimizin inkişaf mərhələlərini əks etdirir, tariximizi yaşadır.

Hazırda Azərbaycan ən qabaqcıl şəhərsalma yanaşmalarını tətbiq etməyə çalışır, çoxsaylı beynəlxalq tərəfdaşları ilə əməkdaşlıq qurur. Son illər ərzində bu sahədə həyata keçirilən qanunvericilik islahatları isə kompleks şəkildə şəhərsalma fəaliyyətinin şəffaf, davamlı və qanunauyğun çərçivədə icrasına şərait yaradıb. Diqqət mərkəzində olan məsələlərdən biri də şəhərsalma və memarlıqda innovativ, davamlı, inklüziv inkişaf siyasətinin müasir tələblərə uyğun təşkil olunmasıdır. Şəhərlərin inklüziv, təhlükəsiz, davamlı və dayanıqlı olmasını təmin etmək üçün ölkəmizdə səmərəli icra mexanizmi formalaşdırılır.

Şəhərsalma sahəsində Azərbaycanın uğurlu fəaliyyəti beynəlxalq müstəvidə layiqincə qiymətləndirilir. İrimiqyaslı qlobal tədbirlərdən hesab edilən Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) Bakı şəhərində keçirilməsi də bunun göstəricisidir. Bu önəmli tədbirin paytaxtımızda keçirilməsi ölkədə uğurla həyata keçirilən genişmiqyaslı layihələr və əldə edilən nailiyyətlər, habelə ölkəmizin bu sahəyə verdiyi töhfələr sayəsində beynəlxalq nüfuzunun ən yüksək səviyyədə olmasının daha bir bariz nümunəsidir. Eyni zamanda, tədbirin keçirilməsi üçün Bakının məkan seçilməsinin əsas səbəblərindən biri də paytaxtımızda sosial-iqtisadi, nəqliyyat və digər infrastrukturların yüksək səviyyədə olmasıdır.



Bundan əlavə, Bakı WUF13 çərçivəsində bir sıra yenilikləri ilə də diqqəti cəlb edir. Belə ki, Liderlər Sammitinin keçirilməsi WUF tarixində bir ilkdir. Yəni, ilk dəfə olaraq WUF13-də şəhərlərimizin gələcəyini müzakirə etmək üçün dövlət və hökumət başçılarının görüşü keçirilib. Bu tarixi addım Azərbaycanın qlobal prioritetlərin formalaşmasında fəal rol oynamaq əzmini ifadə edir.

Qeyd edək ki, Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Liderlər Sammiti mayın 18-də keçirilib. Tədbirdə Qırğızıstan Prezidenti Sadır Japarov, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Keniya Prezidenti Uillyam Samoei Ruto, Serbiya Prezidenti Aleksandar Vuçiç, Bolqarıstan Prezidenti İliyana Yotova, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Gürcüstanın Baş naziri İrakli Kobaxidze, Qazaxıstanın Baş naziri Oljas Bektenov, Esvatini Kralı Əlahəzrət III Msvati, Mavriki Prezidenti Daramber Qoxul, Liviya Dövləti Prezident Şurasının Sədri Məhəmməd Yunis Əl-Mənfi, Çin Xalq Respublikası Dövlət Şurasının Baş nazirinin müavini Can Quoçini, Zimbabvenin Vitse-prezidenti Konstantino Quveya Dominik Nyikadzino, Belarus Milli Assambleyasının Nümayəndələr Palatasının sədri İqor Sergeyenko, Slovakiyanın Baş nazirinin müavini, ətraf mühit naziri Tomaş Taraba, Türkmənistan Prezidenti yanında Arkadağ şəhərinin Tikinti və Dövlət Komitəsinin sədri Deryageldi Orazov, Kambocanın Baş nazirinin müavini və torpaq idarəetmə, şəhərsalma və tikinti naziri Say Sam Al, Albaniyanın Baş nazirinin müavini Albana Koçiu, Ukrayna Baş nazirinin müavini Oleksiy Kuleba və Pakistanın Pəncab əyalətinin Baş naziri Məryəm Nəvaz Şərif çıxış ediblər.

Onlar Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə Azərbaycan rəhbərliyinə dərin minnətdarlıqlarını ifadə edib, Prezident İlham Əliyevin rəhbərliyi ilə Bakının mühüm dialoq mərkəzinə çevrilməsini, eləcə də işğaldan azad olunmuş ərazilərdə qısa müddətdə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərini yüksək qiymətləndiriblər. Çıxışçılar WUF13-ün şəhərsalma sahəsində mövcud olan problemlərin müzakirəsi və yeni ideyaların irəli sürülməsi baxımından mühüm platforma olduğunu vurğulayıb, bu tədbirin mühüm əhəmiyyətini qeyd ediblər.

Qeyd edək ki, Birləşmiş Millətlər Təşkilatının ən nüfuzlu qlobal urbanizasiya platformalarından biri olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası mayın 22-nə kimi davam edəcək. “Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri” mövzusuna həsr olunan bu beynəlxalq tədbir BMT-nin Məskunlaşma Proqramı - UN-Habitat tərəfindən təşkil edilir və şəhərsalma, dayanıqlı inkişaf, inklüziv yaşayış mühiti kimi qlobal əhəmiyyətli məsələlərin müzakirəsi üçün mühüm platforma hesab olunur.

*Nardar BAYRAMLI*

# Avropada sürətli sənaye transformasiyası - “müharibə iqtisadiyyatı”na keçid

## “Mercedes”, “Volkswagen”, “BMW” tarixə qovuşur?

Hazırda dünyada sürətli sənaye transformasiyası izlənilir. Bu, dördüncü sənaye inqilabının çağırışları fonunda təbii proses kimi görünə bilər. İnnovasiyaların, yeni mühəndislik ideyalarının istehsalatda öz əksini tapması tam başa düşüləndir.

Ancaq məsələ burasındadır ki, qlobal sənaye transformasiyaları yalnız texnoloji inkişafdan qaynaqlanmır. Prosesdə geosiyasi və geoiqtisadi amillərin daha böyük rol oynadığı aydın görünür.

Bəli, indiki neoimperializmin yeni konturları ortadadır. Belə ki, qlobal güc mərkəzləri hegemoniyalarını qorumaq, təsir imkanlarını genişləndirmək naminə yalnız klassik müharibələrdən istifadə etmirlər, həm də iqtisadi rıçaqlardan bəhrələnirlər. Hazırda bundan ən çox təsirlənən isə Avropanın, xüsusilə də Almaniyanın avtomobil sənayesidir.

### Avtomobil zavodları bağlanır, işçilər ixtisara salınırlar

Gələn xəbərlər məyusedicidir. “Mercedes”, “Volkswagen”, “BMW”, “Opel”, “SAAB” kimi avtomobil nəhəngləri qeyri-adekvat rəqabətdə uduzurlar. Artıq “Mercedes”in mənfəətinin 70 faizini itirdiyi bildirilir. “Volkswagen” avtomobillərinin istehsalı ilə bağlı vəziyyət də yaxşı deyil - istehsalçı şirkət 87 ildən sonra ilk dəfə Almaniyadakı zavodları dayandırır. Məyusedici cəhət ondan ibarətdir ki, əksər şirkətlərin itkilərinin dinamikası ildən-ilə artır. “Mercedes-Benz” 2025-ci ilin ilk yarısında xalis mənfəətinin 56 faiz itkisi ilə barışmaq məcburiyyətində qalıb. İkinci rübdə isə azalma tendensiyası 69 faizə çatıb. Üçüncü rübdə isə əməliyyat mənfəətində itkilər 70 faiz təşkil edib. “BMW”də də oxşar vəziyyət izlənilir. Belə ki, qurumun xalis mənfəəti 2,7 milyard avrodan 1,8 milyard avroyadək azalıb.

Ötən il həmçinin “Volkswagen” üçün də uğursuz keçib. Şirkət ilə ilk rübə mənfəətinin 40 faiz həcmində itkiləri ilə start verib və bu tendensiya sonrakı rüblərdə də davam edib. Ümumilikdə, məşhur Almaniya üçlüyünün mənfəəti 33-40,5 faiz aralığında azalıb. Digər avtomobil istehsalçısı olan “Stellantis” də yaxşı günlərini yaşamır. 2024-cü ildə şirkətin mənfəəti 70 faiz azalmaqla 5,5 milyard avroya düşüb. Konsern 2025-ci ilin ilk yarısını 2,3 milyard avro zərərlə yekunlaşdırıb.

Sifarişlər də getdikcə azalır. Müəssisələrin yüklənməsi parametri üzrə müəyyənləşdirilən norma 75 faiz olsa da, bu göstərici 45 faizədək aşağı enib. Belə kədərli mənzərə fonunda “Volkswagen” 35 min işçini ixtisar etməyi planlaşdırır. “Audi2” elektrikli “Q8 e-tron”un istehsal edildiyi Brüssel zavodunu dayandırıb, 7,5 min iş yeri ixtisar edilib. Finlandiyanın “Mercedes-Benz”, “SAAB” və “Opel” yığan “Valmet Automotive” şirkəti isə yarım əsrdən sonra 2024-cü ilin dekabrında istehsalı tam dayandırıb. “AlixPartners” konsaltinq şirkəti Avropada daha 8 avtomobil zavodunun bağlanacağını proqnozlaşdırır.

### Daha bir zərbə ABŞ-ın tarif siyasətindən gəlib

Bu gün Avropanın avtomobil sənayesinin güc mərkəzlərinin hibrid müharibələrindən təsirləndiyi də ortadadır. Daha konkret desək, “Mercedes”, “Volkswagen”, “BMW” kimi klassik avtomobil istehsalçılarına daha bir ağır zərbə Amerika Birləşmiş Ştatlarının (ABŞ) tarif siyasətindən gəlib. “Financial Times” qəzetinin yaydığı məlumata əsasən ABŞ-ın Avropa İttifaqından avtomobil idxalına artırılmış rüsumlar tətbiq etməsindən sonra Avropa avtomobil sənayesinin zərəri 8 milyard avronu ötüb. Bu səbəbdən ötən ilin və cari ilin ilk 3 ayının yekunlarına görə ən böyük itkilərə məruz qalan şirkətlər arasında “liderlik” 3,6 milyard avro zərərlə “Volkswagen” konserninə məxsusdur. Tarif siyasəti “BMW”-yə təxminən 2,1 milyard avro, “Mercedes-Benz”ə 1,3 milyard avro ziyan vurub. “Stellantis”in izafi xərcləri isə təqribən 1,2 milyard avro təşkil edib.

Eyni zamanda, analitiklər bədbin proqnozlar verirlər. Onlar hesab edirlər ki, rüsumların yenidən 25 faizə qədər artırılması nəticəsində Almaniyanın “Volkswagen”, “BMW” və “Mercedes-Benz” avtokonsernləri artıq 2026-cı ildə əlavə olaraq təxminən 2,6 milyard avro itirə bilərlər. Hazırda Avropa avtomobil sənayesi Vaşinqton və Brüssel arasında ticarət qarşıdurmasının ehtimal olunan yeni mərhələsinə hazırlaşır.

Xatırladaq ki, ABŞ 2025-ci ilin aprelində Avropa avtomobillərinə rüsumları 2,5 faizdən 27,5 faizə qaldırıb. Həmin ilin avqustunda ABŞ və Aİ arasında ticarət sazişi bağlandıqdan sonra dərəcə 15 faizə endirilib. Lakin 2026-cı il mayın 1-də ABŞ Prezidenti Donald Tramp yeni qərarını avropalı tərəfdaşların öhdəliklərini lazımi səviyyədə yerinə yetirməməsi ilə izah edərək Aİ-dən idxal olunan minik və yük avtomobilləri üçün rüsumların 25 faizə qədər artırıldığını elan edib.

Almaniya Kansleri Fridrix Merts rüsumların artırılmasının Avropa iqtisadiyyatı və avtomobil sənayesi üçün ciddi zərbə olacağını bildirib. O qeyd edib ki, ABŞ Aİ ilə yeni ticarət sazişinə hazırdır, ancaq Avropa ölkələri hələ ki, vahid mövqe formalaşdıra bilməyib. Merts bildirib 2026-cı ilin yayında G7 və NATO sammitlərində bu məsələnin Trampla müzakirə ediləcəyi gözlənilir.

### Çin avtomobilləri Avropa bazarını fəth edir

Qeyd olunan avtomobil markaları yaxın keçmişədək dünyada Avropanın ən məşhur brendləri sayılırdı. Bəs istehsalda və satışda geriləmə nə ilə bağlıdır? Burada ən mühüm amillərdən biri qismində Çin avtomobillərinin Avropa bazarlarını çox sürətlə fəth etməsini göstərmək mümkündür. Xüsusilə də Çin avtomobillərinin müasir dizaynı və qiymətlərinin aşağı olması Avropada onların cəlbediciliyini əhəmiyyətli dərəcədə artırıb.

Beləliklə, Çin avtomobil istehsalçıları Avropa avtomobil bazarında mövqelərini sürətlə gücləndirirlər. Cari ilin mart ayında Çindən idxal olunan qoşulan hibrid avtomobillərin satışları illik müqayisədə 300 faizdən çox artaraq rekord həddə çatıb. Nəticədə, bu avtomobillər Avropada hibrid avtomobil bazarının təxminən 20 faizini təşkil edir. İllər üzrə müqayisələr artım dinamikasının kifayət qədər yüksək olduğunu təsdiqləyir. 2024-cü ilin əvvəlində Çin istehsalı olan hibrid avtomobillərin Avropa İttifaqı bazarındakı payı cəmi 2 faiz səviyyəsində olub. Son iki ildə isə bu göstərici üç dəfə artımla 9,4 faizə yüksəlib. Cari ilin mart ayında Avropada Çin avtomobillərinin ümumi satışı illik müqayisədə təxminən 100 faiz artaraq 140 min 094 ədədə çatıb ki, bu da rekord göstəricidir. Mütəxəssislərin qənaətinə görə, Çin istehsalçıları texnologiya və təchizat baxımından çox sürətlə Avropa avtomobil brendlərinə yaxınlaşır, daha ucuz qiymətlər isə rəqabətdə onlara böyük üstünlüklər qazandırır. Çin avtomobillərinin cəlbediciliyi həm də onların yanacaq sərfiyyatındakı fərqlə bağlıdır. Qlobal enerji bazarında yaşanan gərginlik, dizel və benzinin qiymətlərinin daha da artması fonunda Çin avtomobillərinin hibrid mexanizmlərlə çalışması eyni məsafə qət olunmasına sərf edilən yanacaq xərclərini minimuma endirir ki, bu da onların böyük üstünlüyüdür.

Bu arada Təmiz Nəqliyyat üzrə Beynəlxalq Şura (ICCT) “Qlobal Avtomobil İstehsalçılarının Reytinq 2024-2025” hesabatını açıqlayıb.

Hesabatda Çin avtomobil istehsalçılarının ötən il sıfır emissiyalı avtomobil (ZEV) bazarında ciddi üstünlük əldə etdikləri vurğulanıb. 2024-cü il isə Avropanın elektrikli avtomobil istehsalçıları üçün “itirilmiş il” kimi dəyərləndirilib. Bildirilib ki, Çin hər il 11 milyondan çox elektrikli avtomobil satır və bu göstərici qlobal satışların yarısından çoxunu təşkil edir.




İzlənilən geosiyasi reallıqlar fonunda Avropa özünün yeni müdafiə konsepsiyasına keçid edir. Əvvəllər Avropa İttifaqı ölkələri böyük dərəcədə ABŞ-ın müdafiə çətiri altında idilər. Ağ Evdə son administrasiya dəyişikliyindən sonra ənənəvi mexanizm pozulub. İndi o reallıq yaranıb ki, bundan sonra Avropa öz təhlükəsizliyini özü təmin etməli, bu məqsədlə daha çox vəsait xərcləməlidir və digər zəruri tədbirlər görməlidir.

Artıq ölkələr səviyyəsində bu istiqamətdə işlərə start verilib. Məsələn, Fransa müdafiə gücünü əsaslı şəkildə artırmaq iddialarından çıxış edir. Bu ölkə 2030-cu ilə qədər pilotsuz uçuş aparatları, aviasiya bombaları və raketlərin istehsalını ciddi şəkildə artırmağı planlaşdırır. Hətta Fransa kamikadze dronlarının ehtiyatını 400 faiz artırmağın zəruriliyini bəyan edib. Həmçinin Fransa NATO məqsədlərinə yaxınlaşmaq və Avropadakı hərbi üstünlüyünü qorumaq strategiyasının tərkib hissəsi kimi, 2030-cu ilədək müdafiə büdcəsini artırmağı hədəfləyir.

Son vaxtlarda isə Almaniya müdafiə sənayesini genişləndirməyə davamlı təşəbbüslər göstərir. Almaniyanın dünyaca məşhur avtomobil istehsalı şirkətləri isə hökumətin müdafiə iqtisadiyyatına keçid planını özləri üçün fürsət kimi dəyərləndirirlər. “Mercedes”, “BMW”, “MAN”, “Volkswagen” kimi avtomobillərə tələbatın azalmasının yaratdığı böhran vəziyyətini silah istehsalı sifarişləri ilə aradan qaldırmaq mümkün olacaq. İndiki şəraitdə silahlara tələbatın artması və onların kifayət qədər baha satılması istehsalçılar üçün təyinat dəyişikliyini cəlbedici edir. Həm də onlar müəssisələrdə istehsal təyinatının dəyişməsi üçün zəruri olan vəsaitlərin müəyyən hissəsinin hökumət tərəfindən qarşılanacağına əmindirlər.

Detallara gəldikdə isə, Almaniya hökuməti ölkə iqtisadiyyatını müharibə vəziyyətinə keçirməyə, “Mercedes-Benz”, “BMW”, “MAN” və “Volkswagen” zavodlarını xüsusən də

### Tarix təkrarlanırmı?

Ukrayna üçün silah istehsalına yönəltməyə hazırlaşır. “The Wall Street Journal” nəşrinin yaydığı məlumata görə, Almaniya ixrac modelindəki böhran fonunda avtomobil istehsalından silah sənayesinə keçidi sürətləndirir. Bununla da Almaniya şirkətləri həm iqtisadi tənəzzülü kompensasiya etməyi, həm də yeni gəlir mənbələri yaratmağı hədəfləyirlər. Məsələn, “Volkswagen” “Dəmir günbəz” hava hücumundan müdafiə sistemi üçün komponentlər istehsal etməyi planlaşdırır, avtomobil hissələri istehsalçısı “Schaeffler” isə dronlar üçün mühərriklər, zirehli maşınlar üçün bort sistemləri və hərbi təyyarələr üçün komponentlər istehsalına başlayıb. Bir sıra şirkətlər də Ukraynaya silah və sursat istehsalı üçün üçüncü növbə əlavə ediblər. Patriot tutucularının da tezliklə Almaniyanın avtomobil müəssisələrində istehsal olunacağı bildirilir.

Xatırladaq ki, İkinci Dünya müharibəsi ərəfəsində də Almaniyada “müharibə iqtisadiyyatı”na keçid edilmişdi. Belə çıxır ki, tarix yenidən təkrarlanır. Allah dünyanı yeni dünya müharibəsindən qorusun!

*Mübariz FEYİZLİ*

# Avropanın nicat qapısı - TÜRKİYƏ...

## “Köhnə qitə” bu gün Ankaraya daha çox ehtiyac duyur

Yeni qlobal situasiya bir çox güc mərkəzlərində, xüsusilə Avropada yeni reallıqlar formalaşdırıb. İstər iqtisadi inkişaf tempi, istərsə də təhlükəsizlik amili bu gün Avropanın “qorxulu kabusuna” çevrilib. “Köhnə qitə” açıq şəkildə digər güc mərkəzləri ilə müqayisədə və mübarizədə uduzur - bunun səbəbləri isə müxtəlifdir. Qitənin potensial enerji tələbatı, iqtisadi inkişaf tempi, demoqrafik vəziyyət, təhlükəsizlik arxitekturası (NATO ilə bağlı yaranan ziddiyyətlər) yeni bir nəfəsə ehtiyac duyulduğunu açıq şəkildə hiss etdirir. Bu yeni nəfəs isə məhz Türkiyədir. Bunu həm Avropa etiraf edir, həm də reallıqlar açıq şəkildə göstərir. Qeyd edək ki, bir müddət öncə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirmişdi ki, bu gün Avropanın Türkiyəyə olan ehtiyacı, Türkiyənin Avropaya olan ehtiyacından daha çoxdur və gələcəkdə bu ehtiyac daha da artacaq. Dövlət başçısı bildirmişdi ki, yeni dünya düzənində regional əməkdaşlıq daha da önəm qazanır və Türkiyə bu sistemin əsas güc mərkəzlərindən biridir. Prezidentin sözlərinə görə, belə əməkdaşlıqdan ən çox faydalanacaq tərəf məhz Avropa olacaq.

### İqtisadi inkişaf tempi: Türkiyə öndədir...

Aparılan araşdırmalar göstərir ki, Türkiyənin son illərdə əldə etdiyi inkişaf səviyyəsi bütövlükdə Avropanın inkişaf tempini üstələyir. Bunu rəqəmlər də göstərir. Belə ki, 2025-ci ilin yekunlarına əsasən, Türkiyə iqtisadiyyatı Avropada nominal ÜDM həcminə görə 7-ci, Alıcılıq Qabiliyyəti Pariteti (AQP) ilə hesablandıqda isə 5-ci ən böyük iqtisadiyyat hesab olunur. Beynəlxalq Valyuta Fondunun (BVF) açıqladığı 2025-ci il məlumatlarına əsasən, Türkiyənin iqtisadi göstəriciləri aşağıdakı kimidir:

- Nominal ÜDM göstəricisi ilə (7-ci yer): Türkiyə iqtisadiyyatı təxminən 1,59 - 1,60 trilyon dollar həcmində qiymətləndirilir. Bu siyahıda Türkiyəni yalnız Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, Rusiya və İspaniya qabaqlayır.

- AQP (Satınalma Qabiliyyəti Pariteti) üzrə (5-ci yer): Əhalinin alıcılıq qabiliyyəti və qiymət səviyyəsi nəzərə alındıqda isə Türkiyə iqtisadiyyatı Avropada təxminən 4 trilyon dollarlıq həcmlə yalnız Rusiya, Almaniya, Fransa və Böyük Britaniyadan geridə qalaraq 5-ci yerdə qərarlaşır.

- İqtisadi artım tempi: 2025-ci ilin yekunlarına görə, Türkiyə iqtisadiyyatı 3,6 faiz nisbətində real artım nümayiş etdirərək İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (OECD) daxil olan ölkələr arasında ən sürətlə böyüyən ilk 3 ölkədən biri olub.

Bu reallıqlar özlüyündə mühüm məqamlardan xəbər verir. İqtisadi cəhətdən dayanıqlıq əldə etmiş, siyasi cəhətdən isə nəinki yerləşdiyi coğrafiyanın, bütövlükdə qlobal dünyanın aşkar lider dövlətlərindən birinə çevrilmiş Türkiyə Avropanın nicat qapısıdır. Nəzərə alsaq ki, yaxın gələcəkdə Türkiyə qlobal iqtisadi inteqrasiyanın da mühüm elementlərindən birinə çevriləcək, bu zaman Avropanın Ankaraya olan ehtiyacı daha çox üzə çıxır. Bu gün Azərbaycan ilə birgə bölgədə yeni Şərq-Qərb tranzit xətti formalaşdıran Ankara çox yaxın gələcəkdə mühüm hədəflərə çatacaq kimi görünür. Bu isə Avropaya həm də bir mesajdır...



### Aİ-nin ikili standartları...

Qeyd edilməlidir ki, Avropa İttifaqı özündə 27 dövləti birləşdirən dövlətlərüstü və eyni zamanda dövlətlərarası iqtisadi və siyasi təşkilat sayılır. Formal olaraq 1 noyabr 1992-ci ildə “Maastrixt sazişi” ilə təsis edilmiş bu ittifaqın təməli 18 aprel 1951-ci il tarixli Paris Müqaviləsinə əsasən, Belçika, Almaniya, Fransa, Niderland, Lüksemburq və İtaliya tərəfindən Avropa Kömür və Polad Cəmiyyətinin (AKPC) yaradılması ilə qoyulub. Sonradan genişlənmə prosesinə start verən quruma digər dövlətlər də daxil olub. Ən uzunmüddətli namizəd statusu Türkiyəyə məxsusdur - Ankara 1987-ci ildə Aİ-yə üzvlük üçün müraciət edərək 1999-cu ildə namizəd statusu alıb. 2005-ci ilə qədər tərəflər rəsmi olaraq Ankaranın statusu ilə bağlı danışıqlar aparıblar. Lakin fikir ayrılıqları səbəbindən proses bir neçə dəfə dayandırılıb. 2016-cı ildən danışıqlar prosesi, xüsusən də Türkiyənin qaçqın axınını öz ərazisində saxlamaqla Avropanı miqrasiya böhranından çıxarmaqda göstərdiyi yardıma görə bərpa olunsa da, son 10 il ərzində Ankara danışıqlar prosesini başa çatdıra bilməyib.

Amma artıq vəziyyət dəyişir - Brüssel anlayır ki, Aİ yalnız Türkiyənin liderliyi altında yenidən güc mərkəzi kimi özünü təsdiq edə bilər. Bu fakt Türkiyənin xarici işlər naziri Hakan Fidanın Almaniyaya son səfərində əsas müzakirə predmetlərindən biri olub.

### Almaniya etiraf edir...

Qeyd edək ki, Türkiyə-Almaniya Strateji Dialoq Mexanizminin üçüncü iclası çərçivəsində keçirilən görüşdən sonra Türkiyənin xarici işlər naziri Hakan Fidanla birgə mətbuat qarşısına çıxan onun almaniyalı həmkarı Yohan Vadeful də bu faktı təsdiqləyib. H.Fidan görüşdə Aİ üzvlük prosesinin də müzakirə olunduğunu bildirərək deyib ki, “Türkiyənin layiqli yerini tutmadığı Avropa memarlığı natamam olacaq və böhranların öhdəsindən gəlmək qabiliyyəti zəifləyəcək”. Fidan bildirib ki, iyul ayında Ankarada keçiriləcək NATO görüşü Türkiyəni ittifaqın gücləndirilməsi baxımından əsas mövqeyə qoyur: “Məsələn, Avropa İttifaqının iqtisadi gələcəyi onun rəqabət qabiliyyətinin gücləndirilməsindən, şoklara qarşı dayanıqlığının artırılmasından və yaxınlıqdakı bölgələrdə təchizat zəncirlərinin yenidən qurulmasından asılıdır. Bu baxımdan, Türkiyə ilə dərin iqtisadi inteqrasiya Aİ üçün strateji zərurətə çevrilib”.

Fidan onu da qeyd edib ki, Türkiyənin Aİ-dən əsas gözləntisi münasibətlərin və Aİ-yə namizədlik prosesinin siyasi motivlərdən asılı olmayaraq aparılmasıdır: “Türkiyənin Aİ-nin müdafiə və təhlükəsizlik imkanlarından kənarlaşdırılması Avropanın müəyyən etdiyi təhlükəsizlik məqsədlərinə ziddir.”

Almaniya hökuməti Hakan Fidan ilə kansler Fridrix Merts arasındakı görüşlə bağlı yaydığı məlumatda da qeyd edib ki, Almaniya tərəfi Türkiyə ilə Avropa İttifaqı arasında münasibətlərin inkişafına dəstək verir.

Almaniyalı nazir Vadeful da çıxışında Türkiyənin Aİ-yə tam üzvlüyə sadiqliyinin çox vacib bir siqnal olduğunu vurğulayıb. O, həmçinin Türkiyənin bölgədə çox fəal rol oynadığını qeyd edib. Almaniyalı nazir Türkiyənin çox vacib NATO müttəfiqi və Aİ-nin əhəmiyyətli ticarət tərəfdaşı olduğunu bildirib.

*P.İSMAYILOV*

# Müasir uşaqlar və kitab sevgisi...

Müasir dövrdə uşaqları kitaba cəlb etmək əvvəlki illərlə müqayisədə daha çətin görünsə də, uşaq ədəbiyyatına marağın hələ də yaşadığının şahidi oluruq. Yazıçı Reyhan Yusifqızı ilə söhbətimizdə onun uşaqlar üçün yazmağa necə başladığından, müasir uşaqların maraq dairəsindən, kitabların vizual əhəmiyyətindən danışdıq.




**- Reyhan xanım, necə oldu ki, məhz uşaqlar üçün yazmağa başladınız?**

## Reyhan Yusifqızı ilə söhbət

- Uşaq ədəbiyyatına başlama səbəb qızlarım oldu. Onlar lap kiçik yaşlarından danışdığım hekayələri çox sevirdilər. Hətta məktəbdə sinifdənkənar oxu dərslərində gedib həmin hekayələri müəllimələrinə danışırdılar. Bir gün qızımın müəlliməsi məni məktəbə dəvət etdi və bildirdi ki, bu hekayələr həm onun, həm də uşaqların çox xoşuna gəlir. Onları dərc etməyi tövsiyə etdi. Beləliklə, ilk kitab ideyası yarandı.

**- Neçə ildir yazıçı olaraq fəaliyyət göstərirsiniz?**

- Bu hadisə təxminən 2000-ci illərə təsadüf edir. Sonra daha ciddi şəkildə yazmağa başladım. Bir dəfə kiçik qızım səmadakı ulduzları bizə bənzətdiyini dedi və bu mənə yeni bir ideya verdi. Beləliklə, “Yaşıl gözlü qız” əsərini yazdım. Uğurlu bir əsər alındı. Dostum Yasemin Bayır əsəri oxumaq istədi, sonra onu tərcümə etdi və müsabiqəyə təqdim etdik. Nəticədə üçüncü yerə layiq görüldüm və Ankaraya dəvət olundum. Bu, mənim yazıçı kimi ilk uğurum idi.

**- Bildiyim qədər, böyüklər üçün də yazırsınız.**

- Bəli, böyüklər üçün də maraqlı hekayələrim var. Lakin uşaq ədəbiyyatı ilə məşğul olduqca gördüm ki, bu sahəyə ciddi ehtiyac var. Artıq uşaqlar üçün yazdığım kitablar təkrar-təkrar nəşr olunur.

**- Həm uşaqlar, həm də böyüklər üçün yazırsınız. Bu iki istiqamət arasında hansı fərqləri görürsünüz?**

- Uşaqlar üçün yazmaq daha çətindir. Onların dünyasına uyğun düşünmək və yazmaq lazımdır. Eyni zamanda, dil daha sadə və maraqlı olmalıdır.

**- Məqsəd nə olmalıdır: əyləndirmək, yoxsa öyrətmək?**

- Məncə, hər ikisi. Müasir uşaqlar daha çox əylənərək öyrənmək istəyirlər. Uşaq kitabı yazarkən mövzuya sərhəd qoymuram. Əsas odur ki, hər şey uşaqların dili ilə izah edilsin. Uşaq hər şey haqqında, amma yaşına uyğun şəkildə məlumat almalıdır. Əgər biz bunu düzgün formada çatdırmasaq, onlar başqa mənbələrdən öyrənəcəklər. Bəzən mənə iradlar da olur. Məsələn, bir valideyn zəng edib kitabımda sevgidən bəhs etdiyim üçün narazılıq bildirmişdi. Halbuki həmin kitab 12+ yaş qrupu üçün nəzərdə tutulmuşdu. Valideynlərə tövsiyəm odur ki, uşaqlara yaş kateqoriyasına uyğun kitab seçsinlər.

**- Müasir dövrdə uşaqların telefon və kompüterdən asılılığı artır. Yazılarınızda bu mövzuya toxunursuz?**

- Biz elə bir dövrdə yaşayırıq ki, onları internet dünyasından tamamilə uzaqlaşdırmaq mümkün deyil. Mən deməzdim ki, uşaqlar az oxuyur. Əksinə, onların kitaba marağı artır. Sadəcə, maraqlarına uyğun kitablar azdır. Seçim verilsə, əlbəttə ki, telefonu seçəcəklər. Çünki internet informasiyanı daha sürətli və hazır şəkildə təqdim edir. Kitab isə uşağı düşünməyə, analiz etməyə vadar edir.

**- Kitablarda vizuallığa nə dərəcədə önəm verirsiniz?**

- Əvvəllər kitablarımdakı illüstrasiyalar əsasən ağ-qara olurdu. Lakin son bir ildə nəşriyyat qərar verdi ki, şəkillər tam yenilənsin. İllüstrasiyalar “danışır”, məzmunu vizual şəkildə oxucuya çatdırır. Ən əsası isə uşaqları cəlb edir. Uşaqlar kitabı oxumadan əvvəl belə mövzu haqqında təsəvvür formalaşdırırlar.

**- Bildiyim qədər, həmin şəkillərin müəllifi qızınızdır.**

- Bəli, Aysel Şıxlı rəssamdır və daim öz üzərində çalışır. Nəşriyyat onu özü dəvət etdi.

**- Yaxın günlərdə Bolonya kitab sərgisində iştirak etmisiniz. Təəssüratlarınızı bölüşərdiniz.**

- Oradan çox xoş təəssüratlarla qayıtdım. Sərgidə kitab stendlərinin yanından keçərkən heyran qalırdım. Bir daha anladım ki, illüstrasiyalar kitabın sadəcə bəzəyi deyil, onun vacib hissəsidir. Hətta sərgidə illüstratorlar üçün ayrıca kafe zonası da var idi.

**- Yaxın günlərdə ölkəmizdə də kitab sərgisi keçiriləcək. Bolonya sərgisindən hansı məqamları bizdə görmək istərdiniz?**

- Bilirsiniz, bizim ölkədə sərgilər bir qədər fərqli formatda keçirilir. Mən istərdim ki, bizdə də daha çox interaktivlik, illüstrasiyalara xüsusi diqqət və oxucu ilə müəllif arasında daha canlı ünsiyyət imkanları yaradılsın. Ümid edirəm ki, gələcək zamanda kitab sahəsində düşüncələrimiz daha gözəl şəkildə özünü doğruldacaq.

**Söhbətləşdi: Havar Şəfiyeva**

YENi AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:
“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744
1 illik abunə - 158,40 AZN
6 aylıq abunə - 79,20 AZN





# Dəqiq ölçü, düzgün nəticə...

## Metrologiya keyfiyyət, təhlükəsizlik və etibarın təməlidir

Müasir dövrdə metrologiya cəmiyyətin həyatında olduqca mühüm yer tutur. Aydındır ki, elm, istehsalat və iqtisadi sahələr ölçmə prosesləri olmadan normal fəaliyyət göstərə bilməz. Dünyada hər an milyardlarla ölçmə əməliyyatı həyata keçirilir. İnsan fəaliyyətinin elə bir sahəsi yoxdur ki, orada ölçmənin, sınağın və nəzarətin nəticələrindən istifadə edilməsin. Onların alınması üçün milyonlarla insanların əməyindən və böyük maliyyə vəsaitlərindən istifadə edilir. Təqribən ictimai əməyin 15 faizi ölçmələrin yerinə yetirilməsinə sərf olunur.

**Metrik Konvensiyası**

1875-ci ilin 20 mayında inkişaf etmiş 17 ölkənin hökumət nümayəndələri Parisdə məşhur Metrik Konvensiyasını imzalayıblar. Bununla da hər il bütün dünyada qeyd olunan Ümumdünya Metrologiya Gününün əsası qoyulub. Konvensiyaya uyğun olaraq Çəkilər və Ölçülər üzrə Beynəlxalq Büro (BİPM) yaradılıb, ölçmələr üzrə elm sahəsində beynəlxalq əməkdaşlığın əsasları və onun sənayedə, ticarətdə, cəmiyyətin mənafeyi naminə praktiki tətbiqi mexanizmləri işlənib hazırlanıb.

Metrik Konvensiyası bütün ölkələrdə elmi-texniki tərəqqiyə təsir edib. Belə ki, məhz bu sənəddən sonra ölçmələrin metrik sistemi və beynəlxalq vahidlər sistemi tətbiq edilib, onun əsasında Beynəlxalq Ölçmələr Sistemi yaradılıb. Metrik Konvensiyanın ən başlıca məqsədi olan ölçmələrin vəhdətinin bütün ölkələrdə təmin edilməsi bu gün də çox vacib məsələdir.

**Həqiqi dəyəri bilmək mümkün deyil**

Həqiqi dəyər obyektin və ya hadisənin ideal və mütləq ölçüsüdür, lakin bu dəyəri birbaşa ölçmək mümkün deyil. Bütün ölçmələr təxmini dəyərləri verir, çünki həmişə müəyyən bir ölçü səhvi mövcuddur. Həqiqi dəyəri tam bilmək mümkün olmasa da, dəqiq ölçmə metodları ilə ona yaxınlaşmaq mümkündür.

Metrologiyada bu, ölçmə qeyri-müəyyənliyi adlanır. Bəzən ölçmə qeyri-müəyyənliyi o qədər də əhəmiyyət daşımır. 187 sm, ya da 189 sm boyda olmaq həqiqətən də önəmli deyil. Lakin ticarət və istehsalat sahəsində bu daha vacibdir.

**Metrologiyada fundamental anlayış - İzlənilmə**

Metrologiyada izlənilmə hər hansı bir ölçmə nəticəsinin müəyyən bir milli və ya beynəlxalq standartla əlaqələndirilə bilməsi prosesidir. Bu əlaqə hər mərhələdəki ölçmə qeydləri və səhvlər barədə məlumatların sənədləşdirilməsi ilə təsdiq edilir.

İzlənilmə ölçmənin bir etalon və ya standart vasitəsilə daha yüksək səviyyəli standartlara qədər dayanıqlı və sənədləşdirilmiş bir zəncirlə bağlanmasını təmin edir. Bu anlayış ölçmələrin dəqiq, müqayisəli və beynəlxalq səviyyədə tanınmış olmasını təmin etmək üçün vacibdir. İzlənilmə yalnız texniki bir proses deyil, həm də keyfiyyətin və etibarlılığın təminatıdır.

**Kalibrlənmə - dəqiqliyin təminatı**

Kalibrlənmə ölçmə cihazının göstəricilərinin müəyyən bir etalon və ya standart ilə müqayisə edilərək dəqiqliyinin yoxlanılması və zəruri hallarda tənzimlənməsi prosesidir. Bu proses ölçmə nəticələrinin milli və ya beynəlxalq standartlarla uyğunluğunu təmin etmək məqsədi daşıyır.

Kalibrlənmə olmadan ölçmə cihazlarının göstəricilərinə etibar etmək mümkün deyil. Hər bir sahədə, xüsusilə də təhlükəsizlik, keyfiyyət və standartların təmin olunmasında kalibrlənmə mühüm rol oynayır.

**Azərbaycanda metroloji təminatın əsası**

Müəyyən edilmiş metroloji norma və qaydalara riayət edilməsi bu gün dövlətimizin də diqqətində olan ən vacib məsələlərdəndir. Çünki yalnız ölçmələrin düzgün nəticələri məhsulun keyfiyyətinə və təhlükəsizliyinə, tibbi diaqnostikanın səmərəliliyinə təminat verir, ədalətli ticarətə və ətraf mühitin təmizliyinə imkan yaradır. Heydər Əliyev tərəfindən 13 iyun 2000-ci ildə təsdiq olunmuş “Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında” qanun bu sahənin prioritet istiqamətlərini müəyyənləşdirib və metrologiyanın inkişafına ciddi təkan olub. Prezident İlham Əliyevin apardığı uğurlu iqtisadi siyasətin nəticəsində ölkəmizin ixrac qabiliyyəti yüksəlib, yerli məhsulların beynəlxalq standartlara uyğunlaşdırılması işləri sürətlənib. Bütün bunlar isə metroloji təminatın inkişafından xəbər verir.

*Yeganə BAYRAMOVA*

# Zədələri sağaldan qəhrəmanlar...

## Travmatoloqların peşə bayramıdır

Dünyada milyonlarla insan yol-nəqliyyat hadisələri, istehsalat qəzaları, məişət zədələri, idman travmaları, yanıq halları və müxtəlif növ zədələnmələr nəticəsində ciddi xəsarətlər alır. Bəzi hallarda isə həmin travmalar insanın həyatını birdəfəlik dəyişdirərək əmək qabiliyyətinin itirilməsinə, ağır əlilliyə və hətta ölümə səbəb olur. Yeri gəlmişkən, bu gün travmatoloqların peşə bayramıdır. Belə ki, hər il mayın 20-si Ümumdünya Travmatologiya Günü kimi qeyd olunur.

Travmatologiyanın tarixi isə olduqca maraqlı və qədim dövrlərə gedib çıxır. Arxeoloqların müxtəlif bölgələrdə apardıqları qazıntılar zamanı aşkar etdikləri insan skeletləri və qədim tibbi alətlər göstərir ki, insanlar minilliklər əvvəl belə sınıqları bərpa etməyə, yaraları sağaltmağa və ağır zədələrin nəticələrini aradan qaldırmağa çalışıblar. Hətta bəzi tapıntılar qədim cərrahların kəllə sümüyü üzərində mürəkkəb əməliyyatlar apardıqlarını və xüsusi üsullarla sınıqları bitişdirdiklərini sübut edir.

**“Travmatoloji məntəqə”**

Travmatologiya tibbin müxtəlif sahələri ilə əlaqədardır. Bu elm zədələnmiş bədənin və ya orqanın həmin hissəsini, xəstənin ümumi vəziyyətini, xroniki xəstəlikləri, əks göstərişləri və.s araşdırır. Septik, irinli, yanıq cərrahiyyəsi, neyrocərrahiyyə, flebologiya, hematologiya və digər tibb sahələri travmatologiya ilə sıx bağlıdır.

Adi insanlarda travmatologiya ilk növbədə dayaq-hərəkət sistemindəki xəsarətlərlə assosiasiya olunur. Bu da təsadüfi deyil. “Travmatoloji məntəqə” sözünü çoxları eşidib, bəziləri isə hətta orada olublar. İnsanlar həmin məntəqələrə yıxılma, zərbəalma nəticəsində əl-ayaqda çıxıq, sınıq, əzik və digər xəsarətlər baş verəndə müraciət edirlər. Bu baxımdan, travmatologiya, dayaq-hərəkət sistemi




xəstəliklərinin qarşısının alınması və müalicəsi ilə məşğul olan müvafiq tibb sahəsi - ortopediya ilə sıx bağlıdır. Təsadüfi deyil ki, bu sahədə çalışan həkimlərin ixtisası ortoped-travmatoloq adlanır.

**Travmatologiyada inqilabi yeniliklər**

Müasir travmatologiya artıq yüksək texnologiyalarla təchiz olunmuş, insan həyatını saniyələr içində xilas etməyə qadir olan mürəkkəb və inkişaf etmiş bir elm sahəsinə çevrilib. Çünki bu gün həkimlər kompüter tomoqrafiyası, maqnit-rezonans müayinəsi, süni implantlar, titan lövhələr və robotik cərrahiyyə üsulları vasitəsilə əvvəllər mümkünsüz hesab edilən əməliyyatları uğurla həyata keçirirlər. Beləliklə, ağır travma alan insanların yenidən normal həyata qayıtmasına kömək edirlər.

Bununla yanaşı, mütəxəssislər hesab edirlər ki, ən yaxşı müalicə travmanın ümumiyyətlə baş verməsinin qarşısını almaqdır. Məsələn, təhlükəsizlik kəmərindən istifadə etmək, uşaqları nəzarətsiz qoymamaq, yanğın təhlükəsizliyi qaydalarına əməl etmək, hovuz və dənizlərdə diqqətli davranmaq kimi sadə tədbirlər bəzən bir insanın həyatını xilas edən ən vacib addıma çevrilə bilir.

Ölkəmizdə Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu 1946-cı il martın 11-də hərbi hospitalın bazasında yaradılıb. İnstitutda Poliklinika, Təcili və təxirəsalınmaz tibbi yardım, Ortopediya, Travmatologiya, Əl cərrahiyyəsi və yaralar, Uşaq travmatologiyası və ortopediyası, Artroplastika və artroskopiya, Radiologiya, Anesteziologiya, reanimasiya və intensiv terapiya, Fizioterapiya, Laboratoriya və sair şöbələr fəaliyyət göstərir. Müəssisədə elmi istiqamətdə Metodik təşkilat və Elmi-tibbi informasiya şöbələri mövcuddur.

*Yeganə BAYRAMOVA*

# Süni intellektdən tam asılılıq insan zəkasını zəiflədə bilər

Böyük Britaniyada astronomiya sahəsində fəaliyyət göstərən ən qədim elmi qurumlardan biri olan “Royal Observatory Greenwich” sürətlə yayılan və mürəkkəb suallara ani cavab verən süni intellekt alətlərinin uzunmüddətli perspektivdə insanların zehni qabiliyyətlərini zəiflədə biləcəyi ilə bağlı xəbərdarlıq edib.

AZƏRTAC xəbər verir ki, bu barədə BBC-nin hesabatında məlumat verilib. Qrinviçdəki Kral Muzeyləri Qrupunun (“Royal Museums Greenwich”) direktoru və rəsədxananın rəhbəri Paddy Rodgers bildirib ki, qurumun zəngin elmi tarixi insan zəkasının və elmi marağın gücünü nümayiş etdirir. O, eyni zamanda, süni intellektdən tam asılı vəziyyətə düşməməyin vacibliyini vurğulayıb.

P.Rodgers qeyd edib ki, yalnız ani cavablara güvənmək insanlarda sual vermək və məlumatı tənqidi qiymətləndirmək bacarığının zəifləməsinə səbəb ola bilər. Halbuki məhz bu keyfiyyətlər bilik, təcrübə və innovasiyanın əsasını təşkil edir.

Onun sözlərinə görə, bu açıqlamalar rəsədxanada həyata keçirilən “First Light” (“İlk işıq”) adlı genişmiqyaslı yenidənqurma layihəsi fonunda səsləndirilib. Layihə son 350 ildən artıq müddətdə burada fəaliyyət göstərmiş astronomların elmi irsini qorumağı və onu müasir elmi yanaşma ilə yenidən təqdim etməyi hədəfləyir.

Rodgers bildirib ki, bir çox mühüm elmi kəşf texnoloji inkişaf olmadan mümkün olmazdı. Bununla belə, o vurğulayıb ki, texnologiya təkbaşına kifayət etmir. Elmi tərəqqi həm də insan marağına, sual vermək bacarığına və bəzən gözlənilməz nəticələr doğuran cavabların axtarışına əsaslanır. Bu xüsusiyyətlər isə süni intellekt sistemlərinin hər zaman təqdim edə bilmədiyi insani keyfiyyətlərdir.

Rəsədxana rəhbəri əlavə edib ki, ilk astronomlar səma ilə bağlı böyük həcmdə məlumat toplamış, həmin məlumatlar isə sonradan onların təsəvvür belə etmədikləri sahələrdə istifadə olunmuşdu.

Məqalədə qeyd olunur ki, müasir dövrdə süni intellekt mühüm elmi nailiyyətlərin əldə olunmasına da töhfə verir. Belə ki, 2024-cü ildə zülallar sahəsində inqilabi kəşfə görə kimya üzrə Nobel mükafatı alan DeepMind şirkətinin rəhbəri Demis Hassabis zülal strukturlarının böyük hissəsinin proqnozlaşdırılması üçün süni intellektdən istifadə edib və AlphaFold 2 alətini hazırlayıb.

Öz növbəsində, Reid Hoffman süni intellekti insanın idrak imkanlarında mühüm dönüş nöqtəsi kimi qiymətləndirib. O, BBC-yə müsahibəsində bildirib: “Süni intellektdən ideyalarınızı yoxlayan bir tərəf kimi istifadə edin. Məsələn, ona “Mənim ideyamın zəif tərəfi nədir?” və ya “Bu fikrə alternativ baxış varmı?” kimi suallar vermək olar”.

Akademiklər və tələbələr də elmi araşdırmalarda süni intellektin faydalı rolunu vurğulayıblar. Bildirilib ki, bu texnologiyalar ideyaların yoxlanılması və müxtəlif həll yollarının tapılması prosesində effektiv vasitə kimi istifadə olunur.

Oxford Brookes Universitetinin müəllimlərindən biri qeyd edib ki, süni intellekt alətlərindən məsuliyyətli istifadə tələbələrin diqqətini öyrənmənin daha vacib istiqamətlərinə yönəldə və onların şəxsi inkişafını dəstəkləyə bilər. Bununla yanaşı, düşünmə və təhlil prosesinin tamamilə texnologiyaya həvalə edilməsinin mənfi nəticələr doğura biləcəyi vurğulanıb.

Hazırda mətn, şəkil, video və səs vasitəsilə mürəkkəb sorğulara cavab verə bilən generativ süni intellekt tex-



nologiyaları sürətlə inkişaf edir. Çatbotlar sadə rəqəmsal köməkçi funksiyasından çıxaraq interaktiv ünsiyyət vasitələrinə çevrilib, görüntü yaratma alətləri isə yüksək səviyyədə realistik məzmun hazırlamaq imkanına malikdir. Həmçinin bildirilir ki, inkişaf etmiş süni intellekt modelləri onilliklərdir mövcud olan proqramlaşdırma səhvlərini müəyyən etməyə başlayıb.

Bununla belə, texnologiyanın sürətli inkişafı ilə yanaşı, onun məhdudiyyətləri və həddindən artıq istifadəsinin yarada biləcəyi risklərlə bağlı narahatlıqlar da artır. Rodgers qeyd edib ki, əvvəlki internet platformalarında, məsələn Wikipedia-da istifadəçilər ilkin mənbələrə qayıdaraq məlumatın etibarlılığını yoxlaya bilirdilər. Lakin bəzi müasir süni intellekt alətləri sürətli cavab təqdim etsə də, həmin məlumatın kontekstini və ya ilkin mənbəsini göstərmir. Bu isə istifadəçilərin məlumatın doğruluğunu yoxlama imkanlarını məhdudlaşdırır.

Bununla yanaşı, ənənəvi axtarış sistemlərinə ehtiyac olmadan istifadəçilərə birbaşa cavab təqdim edən generativ süni intellekt alətlərinin yayılması davam edir. “Google” şirkətinin “AI Overviews” funksiyası artıq axtarış nəticələrinin yuxarısında ənənəvi link və mətn fraqmentlərini əvəz etməyə başlayıb. Oxşar yanaşmalar “TikTok” və X platformalarında da müşahidə olunur.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5335
Sifariş: 662
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova